**KÜRD** xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 18 (166), 15 - 21 May, Gulan - sal 2012
*Ji meha şûbatê sala 2003-a tê weşandin*

*Həftəlik İctimai-siyasi qəzet*
*Rojnama heftename civakî û sîyasî*

Qiyməti: 40 qəpik
Hêjaye:

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

**Bakıda Heydər Əliyev Mərkəzi açılmış, Ulu Öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə təntənəli mərasim keçirilmişdir**


Səh. 12

**Hevdîtinên serokê hukumetê berdewamin**


Səh. 15

**Президент Барзани обсудил политический кризис с Послом США**


Səh. 11

**Demokratik Toplum Konqresi (DTK)**


Səh. 4

**PKK-nı dəstəkləyən BDP həmsədri ilə aparıcı arasında canlı yayımda mübahisə yaranıb**


Səh. 14

**Ирак подписал с ЕС договор о партнерстве**


Səh. 14

**Туркменский лидер: вопрос Киркука не может быть решен без соглашения туркмен и курдов**

**Sətri xəbərlər** Səh. 4

**Устойчивый рост числа женщин на государственной службе** Səh. 15

**Türkiyənin İranla bağlı danışıqlarda vasitəçi rolu azala bilər** Səh. 8

**"Suriya vətəndaş müharibəsi astanasındadır"** Səh. 10

**Li Merî wanê festî vala leyî stokên kurdewarî (bi wêne)** Səh. 4

**Xalqlar dostluğuna yeni bir baxış: karaoke-konsert** Səh. 5


Səh. 6

**AX BÊ WELATÎ, BÊ WELATÎ**



Səh. 5

**Киркук и Мосул, Курдистанские и им останутся**


Səh. 8

**Laçın rayonunun işğalından 20 il ötdü**


Səh. 8

**Türkiyə qanunvericiləri yeni konstitusiyanın mətni üzərində işə başlayıb**

www.Diplomata-kurdi.com

# Bakıda Heydər Əliyev Mərkəzi açılmış, Ulu öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun 8 illiyi münasibətilə təntənəli

Xəbər verdiyimiz kimi, mayın 10-da Bakıda Heydər Əliyev Mərkəzi açılmış, ulu öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə təntənəli mərasim keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Dünya arxitekturasının nadir incilərindən olan Heydər Əliyev Mərkəzinin quruluşunda Bakının memarlıq koloriti dəqiqliklə nəzərə alınmışdır. Dünyada bənzəri olmayan Mərkəzin yaradılması ideyasının arxitekturada mükəmməl formada əks olunması onun quruluşuna xüsusi özəllik verir. Ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində Vətəninin və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının, onların arzu və istəklərini gerçəkləşdirmək əzminin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir reallıqlarını əks etdirir. Bununla yanaşı, ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisəyə çevriləcək bu mədəniyyət ocağının yaradılması Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin miqyasını və əhəmiyyətini göstərir.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

***Prezident İlham Əliyevin nitqi***

**- Hörmətli xanımlar və cənablar,**

Əziz dostlar!

Bu gün biz Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünü qeyd edirik. Bu əziz gündə biz Heydər Əliyev Mərkəzinin açılışına toplaşmışıq. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Heydər Əliyev Mərkəzi nadir memarlıq abidəsidir. Mərkəzin yaradılması haqqında fikirlər təqribən 6-7 il bundan əvvəl yaranmağa başlamışdı. O vaxt belə bir fikir yarandı ki, Bakıda çoxfunksiyalı gözəl memarlıq abidəsi olan mərkəz yaradılsın. Mərkəzə ulu öndərin adı verilsin. Biz araşdırmalar aparmağa başladıq. Əsas məsələ yerin düzgün seçilməsi idi. Bildiyiniz kimi, bu ərazidə uzun illər bundan əvvəl yaradılmış Səttarxan zavodu fəaliyyət göstərirdi. Əslində, zavod köhnəlmişdi və burada istehsal olunan məhsullar müasir tələblərə cavab vermirdi. Buna baxmayaraq, zavodun fəaliyyətini dayandırmamaq məqsədi ilə o başqa yerə köçürüldü, ərazi təmizləndi və tikinti başlandı. Zavodun ərazisi 16 hektar təşkil edirdi. İndi bu ərazidə bu möhtəşəm bina ucaldılmış və gözəl park yaradılmışdır.

İkinci məsələ mərkəzin memarlıq tərəfi idi. Bu məqsədlə dünya şöhrətli memar Zaha Hadid öz təkliflərini irəli sürmüşdü. Dərhal onun təklifləri təhlil edilməyə başlandı və qərar qəbul edildi ki, Heydər Əliyev Mərkəzi məhz bu layihə əsasında yaradılmalıdır. Çünki bu, nadir memarlıq əsəridir. Dünyada analoqu olmayan, müasirliyi özündə təcəssüm etdirən çoxfunksiyalı bir binadır. Binanın xarici görünüşü müxtəlif fərziyyələr irəli sürməyə imkan verir. Bəziləri bu mərkəzi dalğaya, bəziləri küləyə bənzədirlər. Bu, təbiidir, hər bir insanın öz fantaziyaları əsasında fikirləri yarana bilər. Hər halda bu bina həm memarlıq baxımından, həm funksional baxımdan nadir binadır.

Beş il bundan əvvəl – 2007-ci ildə binanın bünövrəsi qoyuldu, tikintisi başlandı. Əlbəttə, bu gözəl memarlıq əsərini reallığa çevirmək lazım idi və mən bu



gün bu fürsətdən istifadə edərək həm dünya şöhrətli memar Zaha Hadidə, eyni zamanda, binanın tikintisi ilə məşğul olan bütün insanlara bu gözəl əsəri yaratdıqlarına görə minnətdarlığımı bildirmək istəyirəm.

Siz, əziz dostlar, ilk dəfədir ki, bu binaya gəlmisiniz. Mən isə tikinti zamanı dəfələrlə buralarda olmuşam və tikinti daim nəzarət altında idi. Bina ilə tanışlıq üçün imkanlar olacaqdır. Həm sizin, həm Azərbaycan vətəndaşlarının. Çünki bu bina çoxfunksiyalı mərkəzdir. Burada iclaslar və konsert, rəsmi qəbullar və konfrans zalları vardır, Heydər Əliyev Muzeyi fəaliyyət göstərəcəkdir. Kitabxana, sərgi salonları nəzərdə tutulubdur, digər otaqlar və zallar vardır. Bina Azərbaycan vətəndaşlarına hərtərəfli şəkildə xidmət göstərəcəkdir.

Binanın ərazisi, qeyd etdiyim kimi, 16 hektardır. Gözəl parklar salınıb. İnsanların rahatlığı üçün eskalatorlar quraşdırılıb. Əminəm ki, bu Mərkəz və Mərkəzin ətrafı şəhərimizin gözəlləşməsinə xidmət göstərəcəkdir və eyni zamanda, insanların istirahət yerinə çevriləcəkdir.

Bakı sürətlə gözəlləşir, inkişaf edir. Bakıda həm qədimlik, həm müasirlik vəhdət təşkil edir. Bakı qədim və müasir şəhərdir. Bakının ənənəvi qədim rəmzləri vardır ki, biz bu rəmzlərlə haqlı olaraq fəxr edirik. Qız qalası Bakının ən əsas rəmzlərindən biridir. Dənizkənarı bulvar Bakının rəmzidir. Şirvanşahlar sarayı, Qobustan qoruğu, İçərişəhər Bakının qədim və köhnə rəmzləridir. Müasir Bakımızın müasir rəmzləri isə bu illərdə yaradılır. Onların arasında qeyd edə bilərəm, 3,5 kilometrdən 14 kilometrə qədər uzadılan Bakı bulvarı, onun köhnə hissəsi, yeni hissəsi və Bayraq Meydanı ətrafında tikilən bulvar.

Bayraq Meydanı şəhərimizin, ölkəmizin müasir rəmzidir. Dünyanın ən böyük bayrağı və ən möhtəşəm Bayraq Meydanı Bakıdadır. Bu meydanın ərazisi 60 hektardır. Bu da möhtəşəm, nadir memarlıq abidəsidir, eyni zamanda, dövlətçiliyimizin rəmzidir.

Yeni rəmzlərdən söhbət açarkən, əlbəttə, “Alov qüllələri”ni qeyd etməliyəm. Bu da müasir, inkişaf edən Bakımızın rəmzidir. Yeni istismara verilən “Bakı kristal zalı” və nəhayət Heydər Əliyev Mərkəzi. Bu binalar da Bakının müasir rəmzləridir. Əminəm ki, Bakıya gələn hər bir vətəndaş, hər bir qonaq şəhərin qədim və müasir rəmzlərini görəcək, onlarla tanış olacaqdır. Onlar görəcəklər ki, Azərbaycanda həm qədim tarixə böyük diqqət və hörmət vardır, eyni zamanda, Azərbaycan sürətlə inkişaf edən müasir dövlətdir və Azərbaycanın inkişafı o qədər sürətlə gedir ki, biz belə gözəl memarlıq əsərləri yarada bilirik. Heydər Əliyev Mərkəzi artıq dünya memarlıq siyahısına daxil edilibdir. Heydər Əliyev Mərkəzi memarlıq möcüzəsidir. Təbii ki, bu Mərkəz müstəqilliyimizin banisi Heydər Əliyevin adını daşıyır.

Heydər Əliyev bütün dövrlərdə öz xalqına sədaqətlə xidmət etmişdir. Onun xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. O, bütün dövrlərdə Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına və Azərbaycanın inkişafına böyük səylər



qoymuşdur. 1970-1980-ci illərdə onun rəhbərliyi altında Azərbaycan Sovet İttifaqında ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir. Onun rəhbərliyi altında o illərdə güclü sənaye potensialı yaradılmışdır ki, bu gün də bu potensial müasir və müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin fəaliyyəti uzunmüddətli inkişafa hesablanmışdır. Onun təşəbbüsü ilə başlanmış layihələr, tikilmiş müəssisələr bu gün də xalqımıza, dövlətimizə xidmət göstərir. 1987-ci ildə Heydər Əliyev Sovet İttifaqının siyasi rəhbərliyindən uzaqlaşdırılandan sonra Azərbaycanın problemləri başlamışdır. Ondan iki həftə sonra erməni lobbisi tərəfindən başlanmış kampaniya nəticəsində Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək ideyası ortaya qoyulmuşdur. Bu ideya ətrafında Ermənistan və onun havadarları Azərbaycana qarşı işğalçı siyasətini başlamışdır. Heydər Əliyev amili, onun gücü imkan vermirdi ki, belə iddialar ortaya qoyulsun. Onun istefasından iki həftə sonra bu planlar reallaşmağa başlamışdır.

1988-ci ildə Azərbaycana qarşı növbəti təxribat - Sumqayıt hadisəsi baş vermişdi. İstintaq materialları dərc edilib. Heç kim üçün sirr deyil ki, Sumqayıt hadisələrini erməni millətçiləri törətmişdilər. Bu, onların təxribatı idi və orada ən çox qəddarlıq göstərən erməni millətindən olanlar idi. Məqsəd də aydındır ki, bu hadisədən istifadə edib Azərbaycana qarşı əsassız iddialar irəli sürülsün və ondan sonra azərbaycanlılara qarşı soyqırımı əsaslandırılsın.

1990-cı ildə Azərbaycan xalqına qarşı təcavüz edilmişdir. Qanlı Yanvar hadisələri baş vermişdir. 1992-ci ildə Xocalı soyqırımı törədilmişdir. 1992-ci ilin mayında Şuşa və Laçın rayonları işğal altına düşmüşdür. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonu işğal altına düşmüşdür və beləliklə, Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaranmışdır.

Heydər Əliyevin siyasi hakimiyyətdə olmadığı dövrdə Azərbaycan xalqının başına gör nə qədər bəlalar gətirilmişdir. Xoşbəxtlikdən Azərbaycan xalqı müdriklik göstərərək 1993-cü ildə vətəndaş müharibəsi gedə-gedə ulu öndərə müraciət etmiş, onu siyasi rəhbərliyə dəvət etmiş və imkan vermişdir ki, Azərbaycan bu ağır, çətin vəziyyətdən çıxa bilsin. Yalnız Heydər Əliyev siyasəti, onun müdrikliyi, cəsarəti, xalqa olan münasibəti və xalq tərəfindən ona olan inamın nəticəsində biz o böhranlı vəziyyətdən çıxa bildik. Bütün qanunsuz silahlı birləşmələr tərksilah edildi, sabitlik yarandı, asayiş bərpa edildi, vətəndaş qırğınına son qoyuldu və ölkə inkişaf etməyə başladı.

Ona görə biz deyəndə ki, Heydər Əliyev müasir və müstəqil Azərbaycanın banisidir, yanılmırıq. Həqiqətən də belədir. Çünki müasir tariximiz, şanlı tariximiz 1993-cü ildən başlayır. O ildən

# Öndərin anadan olmasının fəaliyyətə başlamasının mərasim keçirilmişdir



2003-cü ilə qədər Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Mütərəqqi Konstitusiya qəbul edilmişdir, ümumi dövlət quruculuğu prosesi başlamışdır, əsaslı siyasi və iqtisadi islahatlar reallaşmışdır, Azərbaycan dünya miqyasında özünü tanıtdıra bilmişdir və beynəlxalq təşkilatlara üzv olmuşdur.

Heydər Əliyevin təşəbbüsü ilə aparılan iqtisadi islahatlar bazar iqtisadiyyatı prinsiplərinə söykənirdi. Bu da inqilabi bir dəyişiklik idi. Həm siyasi islahatlar, həm iqtisadi islahatlar bugünkü inkişafı şərtləndirir.

O vaxtkı ağır şəraitdə Heydər Əliyevin təşəbbüsü ilə neft strategiyası reallaşmağa başlamışdır. Onun tərəfindən başlanmış bu strategiya bu gün davam etdirilir, zənginləşdirilir. Azərbaycanın uğurlu inkişafını şərtləndirən əsas amillərdən biri də Heydər Əliyev neft strategiyasıdır.

Ordu quruculuğu prosesi başlamışdır. Azərbaycanda nizami ordu demək olar ki, yox idi. Ayrı-ayrı silahlı birləşmələr, müxtəlif siyasi qüvvələrə tabe olan birləşmələr müharibəni lazımi səviyyədə apara bilmirdilər. Nizami ordunun yaradılması tarixi hadisədir. Bu gün ordumuz güclənir və istənilən məsələni həll etməyə qadirdir. Yəni, biz bütün sahələrdə bugünkü Azərbaycan reallıqlarında Heydər Əliyevin izini görürük. Onun təşəbbüsü ilə dövlətimizin ideoloji əsasları formalaşmışdır. Güclü və möhkəm təməl, milli dəyərlər üzərində müasir dövlətin qurulması Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycançılıq məfkurəsini cəmiyyətə təqdim edən məhz Heydər Əliyev olmuşdur. Bu gün azərbaycançılıq fəlsəfəsi bizim əsas ideoloji dayaqlarımızdan biridir.

Bir sözlə, on il ərzində ulu öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev sevgisini qəlbində yaşadır və yaşadacaqdır. Biz – ulu öndərin davamçıları elə etməliyik ki, onun siyasi xətti Azərbaycanda daim üstünlük təşkil etsin. Mən buna şübhə etmirəm. Son doqquz ilin təcrübəsi göstərir ki, biz bu siyasətə sadiqik. Heydər Əliyevin siyasi vəsiyyətinə sadiqik. Çünki 2003-cü ilin sonlarında o demişdir ki, mənim tərəfimdən başlanan işlərə mənim davamçılarım yekun vuracaqdır. Belə də oldu. Onun təşəbbüsü ilə yaradılan və şəxsən təməl daşını qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəmərini biz 2006-cı ildə istismara verdik. Onun təşəbbüsü ilə imzalanmış "Şahdəniz" layihəsinin tərkib hissəsi olan Bakı-Tbilisi-Ərzurum qaz kəmərini biz 2007-ci ildə işə saldıq. Artıq açılan bu yeni dəhliz bizə imkan verdi ki, üçüncü strateji layihəni icra edək. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi uğurla davam edir və yaxın aylarda başa çatacaqdır. Bu yeni dəmir ipək yolunun yaradılması Azərbaycanın uzunmüddətli siyasi və iqtisadi maraqlarını təmin edəcəkdir.

Siyasi islahatlar davam etdirilir. Azərbaycan mövqelərini möhkəmləndirir. Azərbaycanda demokratikləşmə prosesi uğurla gedir. Azərbaycanda bütün azadlıqlar vardır. Bu istiqamətdə aparılan islahatlar çox müsbətdir, çox uğurludur, çox dəyərlidir. Bu islahatlar davam etdiriləcəkdir. Son doqquz il ərzində Azərbaycan iqtisadi sahədə misli görünməmiş inkişaf dövrünü yaşayır. Doqquz ildə iqtisadiyyat üç dəfə artmışdır. Sənaye istehsalı da üç dəfə artmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı təxminən 50 faizdən 7,6 faizə düşmüşdür. İşsizlik kəskin şəkildə azalmışdır. Bir milyondan artıq yeni iş yeri açılmışdır. Hazırda işsizlik Azərbaycanda 5,3 faizdir. Büdcə kəsiri demək olar ki, yoxdur. Bəlkə bir faiz təşkil edir. Amma kəsirsiz büdcə bizim üçün problem deyildir. Xarici dövlət borcu ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Bu, hesab edirəm ki, dünya miqyasında ən uğurlu nəticələrdən biridir. Bizim iqtisadi sahədə uğurlarımız beynəlxalq maliyyə qurumları tərəfindən də qiymətləndirilir və qeyd edilir. Dünya üçün, qitə üçün ən çətin böhran illərində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Üç əsas beynəlxalq reytinq agentlikləri "Moody's", "Fitch", "Standard & Poors" Azərbaycanın kredit reytinqini artırırlar.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilir. Bu ilin birinci rübünün yekunları bunu əyani şəkildə göstərir. Qeyri-neft iqtisadiyyatı 7,7 faiz, qeyri-neft sənaye 16,5 faiz artmışdır. Budur bugünkü Azərbaycanın inkişaf dinamikası və reallıqları. Bununla bərabər, çox güclü sosial siyasət aparılır. Keçən il biz pensiyaların böyük dərəcədə artımına nail ola bildik. Bu ildən sovet dövrü əmanətlərinin qaytarılması, daha doğrusu, insanlara kompensasiyanın verilməsi prosesi başlanmışdır. Hesablanan əmsala görə, postsovet məkanında ən uğurlu və insanlar üçün ən faydalı yanaşma bizdədir. Yəni, ən qısa müddət ərzində ən çox vəsait ödəniləcək ölkə Azərbaycan olacaqdır. Çünki gələn ilin sonuna qədər bütün kompensasiyalar verilməlidir.

Ordu quruculuğu prosesində Azərbaycan çox böyük uğurlara nail ola bilmişdir. Bu gün bizim hərbi xərclərimiz Ermənistanın dövlət büdcəsindən 50 faiz çoxdur. Bizim böyük gücümüz, böyük ordumuz vardır. Silahlı Qüvvələrimiz istənilən məsələni həll etməyə qadirdir. Mən dəfələrlə bir fikri qeyd edirəm, bir daha demək istəyirəm: Mən tam əminəm və bilirəm, Azərbaycan xalqı da tam əmindir ki, əgər ölkəmiz üçün həlledici illərdə - 1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycanda rəhbərlikdə olsaydı, bir qarış torpaq işğal altına düşə bilməzdi.

Məhz ona görə erməni lobbisi, - bu mənfur qurum bütün səylərini Heydər Əliyevin neytrallaşdırılmasına yönəltmişdi. Əfsuslar ki, buna nail oldu. Əfsuslar olsun ki, bu çirkin kampaniyada o vaxt burada, Azərbaycanda milli satqınlar da iştirak etmişlər. "Beşinci kolon" o vaxt da var idi, əfsuslar olsun ki, bu gün də vardır. Onların sayı çox azdır, amma vardır. Bu gün də müstəqil ölkəyə zərbə vurmaq, ölkəmizi ləkələmək, ölkəmizin imicinə xələl gətirmək onların peşəsidir. Antimilli qüvvələr qınaq obyektinə çevrilir. Azərbaycan cəmiyyəti bu qüvvələri rədd edir və biz heç vaxt imkan verməz ki, Azərbaycanın müstəqilliyinə, suveren inkişaf haqqına kimsə müdaxilə etsin. Son doqquz ildə Azərbaycan xarici siyasət sahəsində böyük uğurlara imza atmışdır. Bizim dostlarımızın sayı artmaqdadır. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, bərabərhüquqlu münasibətlər qura bilmişik. Bu, bizim yanaşmamızdır. Bu ədalətli yanaşmadır. Biz beynəlxalq hüquq normalarına hörmətlə yanaşırıq və bütün ölkələri buna dəvət edirik. Bir sözlə, regionda, bölgədə nüfuzumuz artır. Azərbaycanın iştirakı olmadan nə iqtisadi sahədə, nə də siyasi sahədə heç bir təşəbbüs, heç bir layihə icra edilə bilməz. Azərbaycan bölgənin mərkəzidir, ən qüdrətli, ən dinamik inkişaf edən dövlətdir. Biz bundan sonra da ikitərəfli formatda bütün ölkələrlə ancaq bərabərhüquqlu münasibətlərin inkişafına çalışacağıq. Mən çox şadam ki, bu prinsipləri bölüşən ölkələrin sayı həddindən artıq çoxdur və bir sözlə, dostlarımızın sayı artır. Biz beynəlxalq təşkilatlarda prinsipial mövqeyimizi həmişə olduğu kimi ifadə edirik. Hər bir məsələ ilə bağlı bizim prinsipial, birmənalı mövqeyimiz vardır. Bu mövqe ədalətə, beynəlxalq hüquqa və Azərbaycan xalqının milli maraqlarına əsaslanır.



Azərbaycan tərəfindən aparılan xarici siyasət nəticəsində bu gün dünya miqyasında bizə çox böyük inam və hörmət vardır. Mən bunu bilirdim. Çünki ikitərəfli təmaslarda, beynəlxalq təşkilatların toplantılarında iştirakım və bütövlükdə xarici əlaqələrlə bağlı irəli sürülən təşəbbüslər bu əminliyi yaradırdı. Mən bilirdim ki, Azərbaycan çox böyük hörmətə malik olan ölkədir. Ancaq bu gün bunu bütün dünya bilir. Çünki bir neçə ay bundan əvvəl Azərbaycan dünyanın ən mötəbər qurumuna üzv seçilmişdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Hesab edirəm ki, müstəqillik dövründə bu, bizim ən böyük diplomatik uğurumuzdur. Biz dünya birliyinin dəstəyini qazana bilmişik. Dünya birliyi deyəndə əlbəttə ki, Birləşmiş Millətlər Təşkilatı nəzərdə tutulur. Çünki bütün dünya dövlətlərini birləşdirən yeganə təşkilat BMT-dir. BMT-nin ən ali orqanında təmsil olunmağımız böyük tarixi nailiyyətdir və tarixi ədalətdir.

Azərbaycan 155 ölkənin dəstəyini qazanaraq bu mötəbər kürsüyə çatmışdır, hazırda Təhlükəsizlik Şurasına rəhbərlik edir. Bir həftə bundan əvvəl Azərbaycan Prezidenti BMT Təhlükəsizlik Şurasına rəhbərlik edirdi. Bu da tariximizdə böyük hadisədir.

Bir daha demək istəyirəm, əziz dostlar, mən bunu tam səmimiyyətlə deyirəm, bugünkü reallıqların təməli ulu öndər tərəfindən qoyulmuşdur. Əlbəttə, həyat yerində durmur. Yeni çağırışlar irəli sürülür, yeni vəzifələr ortaya çıxır. Biz daim çevik diplomatiya aparırıq. Ölkə daxilində əlbəttə ki, yeni çağırışlar çıxır və biz çalışırıq ki, ölkə daxilində olan bütün sosial və iqtisadi məsələləri həll edək. Büdcə xərcləri 12 faizdən çox artmışdır. Digər iqtisadi göstəriciləri mən artıq qeyd etdim. Ancaq bütün bu uğurların təməlində ulu öndərin siyasəti dayanır. Çünki 1993-cü ildə və ondan sonra inkişafımızın əsas istiqamətləri məhz onun təşəbbüsü ilə müəyyən edilmişdir. İstər xarici, istər daxili siyasətlə bağlı siyasi və iqtisadi islahatlar onun dünyagörüşü, onun fəlsəfəsi və uzaqgörənliyi sayəsində formalaşmışdır. Biz bu istiqamətlər üzrə irəliyə gedirik. Biz bu ana xətdən kənara çıxmırıq. Ancaq eyni zamanda, əlbəttə ki, əvvəlki dövrün təcrübəsini təhlil edərək biz irəli gedirik. Bu da təbiidir. Hər bir cəmiyyət inkişaf etməlidir. Azərbaycan cəmiyyəti də inkişaf edir. Ancaq müəyyən edilmiş istiqamətlər, strategiya üzrə. Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır. Biz siyasətimizi vahid strategiya və konsepsiya əsasında qururuq.

Bugünkü Azərbaycan reallıqları bir daha sübut edir ki, seçdiyimiz yol düz yoldur. Biz bu yol ilə gedəcəyik. Bu yolu Heydər Əliyev siyasəti işıqlandırır. Biz bu yola sadiqik. Əminəm ki, bundan sonra da bu yolda bizi ancaq və ancaq uğurlar gözləyir. Sağ olun.

***Azertag.com***

# Sətri xəbərlər

* Kürdüstan muxtariyyatının prezidenti Məsud Barzani Bolqarıstanın nümayəndə heyyətini qəbul etmişdir.
* Suriyada qanlı toqquşmalar davam edir. Son günlərdə yüzlərlə insan qətlə yetirilmişdir.
* Bakı şəhərində kürd gəncləri tərəfindən hazırlanan "Kürd dili" və "Kürd mətbuatı" günü qeyd edilmişdir. Təşkilatçılar Seymur Alxanov və Nofəl Ədalətin sözlərinə görə, gənclərin doğma dilinə və tarixinə olan maraq tədqirə layiqdir.
* Türkiyədə keçirilən mitinq zamanı polis kütləyə atəş açıb. Nəticədə bir tələbə həlak olub, xeyli sayda insan yaralanıb.
* PJAK başqanı Cəmil Bayık: Türkiyə və İran arasındakı ixtilaxlar daha da dərinləşir.
* "Amerikanın Səsi" radiosunun "Kürd dili" şöbəsi öz 20 illik yubileyini qeyd edir.
* Türkiyədə yeni kürd partiyası yaradılacaq. Gözlənilir ki, Partiya İslam yönlü olacaq və Türkiyə Kürdüstanında hakim AK Partiyasına rəqib olacaq.
* Diyarbəkir şəhərində uşaqlar üçün kürd dilində baxça açılıb.
* Cənubi Kürdüstanın DİN-yi birləşib yeni vahid struktur olacaq. Qeyd edək ki, Cənubi Kürdüstanın Daxili İşlər Nazirliyi iki hissədən ibarətdir ki, biri KDP-yə (Barzani) tabedir, digəri isə YNK-yə (Talabani) tabedir.
* Türkmən cəmiyyətinin sədri Asama Adel: Kərkük məsələsi kürdlər və türkmənlər arasında həll olunmalıdır. Qeyd edək ki, hal hazırda Kərkük əhalisinin 60% milliyətcə kürddür.
* Kürdüstan Parlamenti yeni qanun qəbul etmək niyyətindədir. Bu qanun əsasında dinlərarası əlaqələr, münasibətlər və s. tənzimlənəcək.
* Ərəb xəbər ajansları: Məsud Barzani və İraq müxalifəti Kərkük və Mosul məsələsinə dair artıq razılaşma əldə edi-blər.
* Tarik Əl-Haşimi: "Mən məhkəmə qarşısına çıxmağa hazıram. Lakin onun qeyri-adələtli keçməsindən ehtiyyat edirəm". Qeyd edək ki, İraqdan kaçmış ölkənin sünni vitse-prezidenti Türkiyədə sığınacaq tapıb.
* Kürd xalqı Suriyada keçirilən seçkilərə və referendumlara qoşulmayacaq.

Cənubi Kürdüstanın paytaxtı Həvler şəhərində Kürdüstan-Rumıniya iqtisadi forumu keçirilmişdir.

* Həvler şəhərində müsəlmanlar tərəfindən böyük nümayiş keçirilmişdir. Buna səbəb isə muxtariyyatda nəşr olunan bir neçə jurnalın İslamı təhqir etməsi olmuşdur. Kürdüstan hökuməti dərhal təcili tədbirlər görmüşdür – həmin jurnalların nəşri dayandırılmış, baş redaktorları isə həbs edilmişdir.
* İraqın baş naziri Nuri Əl-Maliki Kərkükə səfər etmişdir. Səfər zamanı onu İraq ordusunun bir neçə alayı baş naziri müşaidə etmişdir.
* İraq Şiələrinin rəhbəri Moktada Əs-Sədr bildirmişdir ki, Nuri Əl-Maliki ölkəni dikdaturaya qaytarmaq istəyir. Şiələr buna imkan verməyəcəklər.
* Nuri Əl-Maliki: "Biz Kürdüstana hücum etmək fikrində deyilik. Əksinə, biz ABŞ-dan yeni silah alırıq ki, kürdləri Türkiyə və İrandan qoruyaq"; "Moktada Əs-Sədrin quldur dəstələrini ləvğ etmək lazımdır. Onlar Şiə bölgələrində əmin-amanlığı pozur".
* Kürdüstan muxtariyyatının büdcəsi təsdiq olunmaq üçün yerli Parlamentə göndərilib. Qeyd edək ki, Kürdüstanın gələn ilki büdcəsi təxmini 10 milyard AZN civarında olacaq.

# Türkiyə polisi 28 kürd yaraqlısını həbs edib



***Türkiyə polisi fəaliyyəti qadağan olmuş kürd qrupunun altı vilayətdə istinadgahlarında keçirilən reydlərlə əlaqədar 28 nəfərin həbs edildiyini bildirib. Milli Polis departamentinin bildirdiyinə görə, Kürdüstan icmaları birliyinə qarşı Şanlıurfa, Diyarbəkir, Eskişehir, Mus və Ankarada qarşı reydlər keçirilib.***

Bu gün habelə Türkiyənin əsas etibarilə kürdlərin yaşadığı cənub-şərq bölgəsində təhlükəsizlik qüvvələrilə toqquşma zamanı beş kürd yaraqlısının qətlə yetirildiyi bildirilir. Toqqușma Bitlis vilayətinin Tatvan şəhəri yaxınlığında baş verib.

Ankara rəsmiləri Kürdüstan icmaları birliyinə fəaliyyəti qadağan olmuş PKK-nın siyasi qanadı kimi baxır.

# Bərzani Kərkükü rəsmən istəyibmiş



Deyerler.Org: Türkiyənin Aksiyon jurnalının iddiasına görə, Bərzani İstanbulda müstəqil "Kürdüstanı elan etməyi planlaşdırdığını, Kürdüstana daxil edəcəyi Kərkükü də Türkiyə ilə birlikdə idarə etmək istədiyi" açıqlayıb. (Dünya Bülleteni)

İraq Regional Kürd Muxtariyyətinin rəhbəri Məsud Bərzaninin Türkiyə səfərində baş nazir Tayyib Ərdoğan, prezident Abdullah Gül və XİN rəhbəri Əhməd Davudoğlu ilə apardığı müzakirələrin əsas mövzusunun İraqın siyasi vəziyyəti, Suriya mövzusu və PKK-nın zərərsizləşdirilməsi olub. Ancaq əsl müzakirə Bərzani ilə Ərdoğan arasında İstanbulda aparılıb və burada bir sıra mövzuda qarşılıqlı razılıq zəmini yaradılıb.

Səfərin Bərzaninin Amerika səfərindən sonra baş tutması diqqət çəkərkən, görüşlərdən sonra isə iyunda Ərbildə təşkil edilməsi planlaşdırılan Kürd Konfransında Bərzaninin Kürd nümayəndələr qarşısında PKK-ya tərksilah olmaları çağırışını edəcəyi və siyasi yol seçmələrini təklif edəcəyi də danışılır.

Baş nazir Ərdoğan isə həm Suriya mövzusunda ortaq hərəkət etmə, həm də PKK-nın zərərsizləşdirilməsi barəsində Bərzani ilə eyni fikirdə olduğunu açıqlayıb.

# Təşkilatın məqsədi 4 ölkədə "Kürdüstan" qurmaqdır




Türkiyədə KCK iddianaməsi qəbul edilib. İddianamədə "KCK"nın son hədəfi aşkar olub.Xüsusi Səlahiyyətli Prokuror Adnan Çimenin hazırladığı iddianamədə "KCK"nın son hədəfinin Türkiyə, İran, Suriya və İraq torpaqlarında "Kürdüstan" dövləti qurmaq olduğu, KCK ilə PKK və BDP arasında sıx əlaqələrin olduğu ifadə edilir.

Qeyd edək ki, "KCK"nın kürdcə açılışı "Koma Civaken Kurdistan"dır. Azərbaycan türkcəsində isə bu "Kürdistan Xalqlar Birliyi" anlamındadır.

# PKK-nı dəstəkləyən BDP həmsədri ilə aparıcı arasında canlı yayımda mübahisə yaranıb



SalamNews, N.Ələkbər. ABŞ-dan səfərdən qayıdan BDP-nin həmsədri Səlahəddin Demirtaş "SKY Türk" və "Show TV"də canlı yayımlanan "Siyasət Meydanı" verilişinin qonağı olub. SalamNews-un Türkiyə mətbuatına istinadla verdiyi xəbərə görə, Dəmirtaşla proqramın aparıcısı Əli Kırca arasında mübahisə yaranıb.

Kürd problemi ilə bağlı ABŞ-da keçirdiyi görüşlər haqqında məlumat verən Demirtaş, mövzu PKK-nın silahı yerə qoyma məsələsinə gəlincə, Kırca ilə qızğın mübahisəyə başlayıb. Dövlətin illərdir PKK-nı silahı yerə qoymağa çağırdığını qeyd edən Demirtaş, hökumətin bunun yerinə yeni variantlar təklif etməsi lazım olduğunu vurğulayıb. Demirtaşın bu sözləri Əli Kırca tərəfindən etirazla qarşılanıb və onların arasında mübahisə yaranıb. PKK-nın tərksilah olmasının zəruriliyini müdafiə edən Kırcanın təkliflərindən sonra Demirtaş həm PKK-nı, həm də hökuməti əməliyyatları dayandırmağa çağırıb: "Açıqca deyirəm, dağa çəkilən bir PKK-lı əsla təslim olmamalıdır. Problem həll edilənə qədər hücum etməməlidir. Əsgər, polis, meşəbəyi, vətəndaş, heç kimə qarşı silahla hücum etməməlidir. Ciddi söyləyirəm. Fəal hərəkətləri həyata keçirməyən PKK-ya qarşı hərbi əməliyyat aparılmamalıdır. Biz də problemin siyasi yolla həlli üçün çalışaq. Amma mən "peşman olduq", "təslim olun" deməyərəm".

# DİNDAR KÜRD PARTİYASI YARADILIR

## *Adında "Kürdüstan" sözü keçən yeni kürd partiyasının yaradılması oktyabr ayında elan ediləcək*



FaktXeber.com-un verdiyi məlumata görə, Şərq və Cənubi-şərq Anadolu bölgəsində yaşayan və özlərini "dindar və mühafizəkar kürdlər" adlandıran bir qrup, "Kürdüstan İslam Partiyası" adlı təşkilatı qanuni siyasi partiyaya çevirməyi planlaşdırır. Kürd əhalisinin olmadığı vilayətlərdə fəaliyyət göstərməyi düşünməyən təşkilat rəhbərliyi, İraq Federal Kürdüstan bölgəsinin özləri üçün model götürür.

Yeni partiyanın liderli isə Diyarbəkir Vəkillər Bürosunun vəkil Sıdık Zilan olacaq. O, cari ilin oktyabr aydına kimi partiyanı yaradacaqlarını söyləyib. Mövcud kürd partiyalarıyla rəqib deyil, müttəfiq olacaqlarını söyləyən Zilan, "İzmir kimi mühafizəkar kürd əhalisinin olmadığı yerlərdə fəaliyyət göstərməyəcəyik", -deyib.

Vəkil daha sonra belə deyib: "İşlərimiz bir ildir davam edir. Əhəmiyyətli dəstək almışıq. Oktyabr ayına kimi partiyanın qərargahı hazır olacaq. Diyarbəkir, Urfa, Batman, Bingöl, Elazığ başda olmaqla bir çox vilayətdə fəaliyyət göstərəcəyik. Daxilən dindar və "boz seqment" kimi tanınan, özlərini BDP və PKK xəttindən uzaq tutaraq, AKP və Səadət Partiyasına səs verən dindar kürdlərin səslərini qazanmağı planlaşdırırıq. Dindar kürdlərə siyasətin yolunu açmaq üçün İslami bir partiyaya ehtiyac olduğu aşkardır. Hədəfimiz Kürdüstan xalqının Ankara ilə olan siyasi təmsilçilik əlaqələrini qoparmaq, onları öz bünövrəsi üzərində təşkilatlandırmaqdır."

**Əziz Sahiboğlu**



# Xalqlar dostluğuna yeni bir baxış: karaoke-konsert

Bakı, 2 may (AzərTAc). Mayın 5-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Caz Mərkəzində keçiriləcək tədbir həm peşəkar musiqiçilərin, həm də bütün musiqisevərlərin qəlbini oxşayacaqdır. Çünki bu tədbirə qatılanlar sadəcə seyrçi deyil, həm tamaşaçı, həm də, eyni zamanda, ifaçı funksiyalarını birgə yerinə yetirəcəklər. Söhbət karaoke-konsertdən gedir.

BMA-dan AzərTAc-a bildirmişlər ki, bu qeyri-adi konsert ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr ediləcəkdir.

Tədbirdə Təhsil Nazirliyinin dəstəyi və Bakı Musiqi Akademiyasının təşəbbüsü ilə nəşr olunmuş "Azərbaycanda yaşayan xalqların 50 mahnısı" kitabının geniş ictimaiyyətə orijinal şəkildə təqdimatı olacaqdır. Başqa sözlə, Azərbaycan, rus, ləzgi, tatar, talış, kürd, avar və başqa xalqların mahnılarının səslənəcəyi karaoke-konsert ölkəmizdə yaşayan bütün xalq və etnik qrupların nümayəndələrinin musiqi bayramına çevriləcəkdir.

Tədbir Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, "Musiqi dünyası" jurnalının yaradıcı qrupu və "Samur" qəzeti redaksiyasının birgə səyləri ilə hazırlanmışdır.

Bu qeyri-adi konsert müxtəlif xalqların mahnılarını öyrənmək, dinləmək və hətta kollektiv şəkildə oxumaq arzusunda olanları ürəkdən sevindirəcəkdir.

Layihənin rəhbəri SSRİ və Azərbaycan Respublikasının Xalq Artisti, BMA-nın rektoru, professor Fərhad Bədəlbəylidir.

# "F-16" təyyarələri kürdləri Türkiyə və İrandan qorumaq üçün alınır - rəsmi Bağdad



Bakı, 2 may, SalamNews, N.Ələkbər. Bağdad rəhbərliyi ABŞ-dan "F-16" hərbi təyyarələrinin alınmasına qarşı çıxan Məsud Bərzaniyə bildirib ki, bu təyyarələr kürdləri Türkiyədən qorumaq üçün alınır.

SalamNews-un "Doğan" agentliyinə istinadla verdiyi xəbərə görə, Şimali İraq Kürd Administrasiyasının rəhbəri Məsud Bərzani, ötən həftə ABŞ ilə İraq arasında imzalanan və Bağdad rəhbərliyinə 36 ədəd "F-16" hərbi təyyarəsinin satılmasını nəzərdə tutan 1 milyard dollarlıq razılaşmaya mənfi reaksiya göstərmiş və bu təyyarələrin satılmasına qarşı çıxmışdı.

Rəsmi Bağdad isə Bərzaninin bu hərəkətinə cavab verib: "2014-ci ilin əvvəlinə qədər 24 ədədi alınması planlaşdırılan bu təyyarələr xarici təhdidlərə qarşı istifadə ediləcək. Təyyarələr kürdləri Türkiyə və İranın hücumlarından qoruyacaq. Bərzaninin ortaya atdığı iddiaları əsassızdır. Artıq Bağdadda kürdləri düşmən kimi dəyərləndirməyən rəhbərlik mövcuddur".



# Aslandan bəstəkarların ünvanına kəskin ittihamlar

"Vətəninfo.az"a açıqlamasında müğənni Aslan Hüseynov bildirib:

"Müğənnilər bayağı musiqi axtarırlar ki, onları dinləsinlər. Bu gün müğənnilərin qazancı toylardan çıxır. Ona görə, müğənnilər ancaq toy mahnıları oxuyurlar. Gənc ifaçılar da, tanınmış ifaçılar da kommersiya üçün işləyirlər.

"Bu gün bəstəkarlar bayağı musiqilər yazır, gənclər isə bayağı musiqiləri sevirlər". Bunu Müğənni bəstəkarlar haqqında da ətraflı söhbət açıb:

"Bəstəkarların çoxları özləri özlərindən mahnı oğurlayır. Bir yaxşı mahnı yazır. Sonra da görür ki, mahnı sevildi. Ona oxşar başqa mahnı yazır. Bir mahnıya qulaq asanda artıq bilirsən ki, bunun müəllifi kimdir. Xaricdən götürülən mahnılarda çoxdur. Bu gün bizdə xeyli sayda özbək, türk, kürd mahnıları var. Bizim bəstəkarlar çox savadlıdır. Lakin müğənnilər elə mahnıları oxumurlar. Ona görə də bəstəkarlar bayağı mahnılar yazırlar. Özü yazıb özü dinləməyəcək ki? Bu gün qınaq obyekti müğənnilər və zövqü korlanmış dinləyicilərdir."

***Könül İbrahim***

# İraq hakimiyyəti daxilində gərginlik artır



İraqın İran meyilli Əl-Maliki hakimiyyəti ilə Şimali İraqdakı kürd özünüidarəsini başçısı Bəzani arasında münasibətlər bir qədər də gərginləşib. "OLAYLAR"-ın Türkiyə bürosunun verdiyi xəbərə görə, Bərzani Əl-Malikini diktator və İranın kuklası olmaqda ittiham edib. Son qalmaqal isə Bağdad hökümətinin ABŞ-dan F-16 reaktiv qırıcı təyyarələr sifariş etdikdən sonra baş verib. Kürd yerli idarənin lideri Bərzani ABŞ-ı sərt ittiham edərək Əl-Malikinin bu təyyarələrdən Şimali İraqdakı kürdlərin əleyhinə istifadə edəcəyindən əndişələndiyini dilə gətirib. Əl-Maliki isə təyyarələri Türkiyədən qorunmaq üçün aldıqlarını ifadə edib. Bu arada Əl-Malikinin müavini olan Əl-Əsgəri kürdləri Səddamdan qalan tank və ağır silahları Bağdada geri təslim etməyə çağırıb.

# Suriya: İrana oxşayan ərəb dövləti

Ərəb dövlətləri Suriyanı nəyin bahasına olur-olsun İranın təsir dairəsindən çıxarmağa çalışırlar...

"Bu gün Suriya əslində bəzi dövlətlərin və siyasi dairələrin təqdim etdiyi kimi "İslam müqavimətinin" ayrılmaz hissəsi yox, İran və Livan (Hizbullah) arasında dəhliz rolunu oynayır". Yaxın Şərq və ərəb ölkələri üzrə mütəxəssis Rufiz Hafizoğlu Publika. Az-a açıqlamasında belə deyib.

Analitik hesab edir ki, bu dəhlizdən İran vasitəsilə təqdim edilən köməkdən fələstinli qrupların, xüsusən də "İslami-cihad" qruplaşmasının faydalandığını inkar etmək olmaz:

"Suriya hakimiyyəti toqquşmalara başqa don geyindirməyə çalışsa da, ölkədə "Əl-Qaidə" terror təşkilatının və ya digər islamçı radikal qrupların nizami orduya qarşı mübarizə apardığını söyləsə də reallıq bunu əks etdirmir.

Bu gün Suriya küçələrində konkret üç qrup mübarizə aparır: Rəsmi dövlət ordusu, əksəriyyəti ələvilərdən ibarət hakimiyyətə sadiq mülki geyimli dəstələr və nizami ordudan ayrılan, hakimiyyətin fərari adlandırdığı Azad Suriya Ordusu.

Sual yarana bilər: Azad Suriya Ordusunu kim silahlandırır? Son dəfə Suriya müxalifəti ilə görüşüm zamanı müxalifət nümayəndəsi qonşu dövlətlərin silah dəstəyi verdiyini, lakin bunun cüzi olduğunu etiraf edərək Azad Suriya Ordusunun dövlət ordusundan pulla silah aldığını bildirdi.

Suriyada baş verən hadisələrə müxtəlif prizmadan yanaşmaq olar, lakin hesab edirəm ki, Suriya vətəndaş müharibəsinin astanasındadır".

Ekspert Suriya prezidenti Bəşər Əsədin hakimiyyəti qoruyub saxlama ehtimalından da danışıb: "Hadisələrin bu templə gedişatı Əsədin hakimiyyətdə qala bilməyəcəyini iddia etməyə əsas verir. Hesab edirəm ki, o fürsəti buraxıb".

Analitikin sözlərinə görə, Tunis istisna olmaqla, nə Liviyada, nə də Misirdə inqilab hədəfinə tam çatmayıb: "Regionun super-güc dövləti olan Misirdə bir çox strukturlarda hələ də Hüsni Mübarək zamanında qalan kadrlardır. Ərəb regionunda demokratikləşmə uzun və ağrılı prosesdir. Bu ölkələr demokratikləşsə belə, bu, bizim düşündüyümüz və Qərbdəki demokratik idarə sistemi olmayacaq".

Tunisdə, Misirdə və Liviyadakı inqilabi proseslərin Suriya ilə müqayisəsindən söz açan Rufiz Hafizoğlu bildirib ki, həmin ölkələri Suriyadan geosiyasi fərqlər ayırır, bundan savayı etnik və dini tərkib də fərqlidir: "Tunis, Liviya və Misir etnik və dini baxımdan monotondur. Yalnız Misirdə qipti ( xristian misirlilər) amili var.

Suriyada hər şey tam fərqlidir. Suriyada



müsəlman və xaçpərəstlər yaşayır, sünni, şiə, ələvi, druiz və təbii ki, kürd amili də mövcuddur. Bu ölkədə yalnız İranın yox, Fars körfəzi dövlətlərinin və Türkiyənin maraqları da kəsişir.

Suriya nə qədər ərəb dövləti olsa da, siyasi strukturu ilə İrana daha yaxındır, hətta Suriya regionda olan "Şiə ayparasının" bir hissəsidir. Təbii ki, ərəb dövlətləri Suriyanı ciddi-cəhdlə, nəyin bahasına olur-olsun İranın təsir dairəsindən çıxarmağa çalışırlar.

Suriya və İran arasında təhlükəsizlik haqqında razılaşma qüvvədədir. Bu razılaşmaya əsasən Suriya ərazisinə hər hansı hərbi müdaxilə, İrana hərbi müdaxilə kimi qiymətləndirilir. Bu razılaşma qonşu dövlətləri daha ehtiyatlı davranmağa məcbur edir.

Suriyada Bəşər Əsəd rejiminin hələ də hakimiyyətdə qalmasının səbəbləri bununla bitmir. Etiraf etmək lazımdır ki, hazırda Suriya müxalifəti arasında ölkənin gələcək üsul-idarə sistemi ilə bağlı ciddi fikir ayrılığı mövcuddur".

Ankaranın Suriya məsələsində tutduğu mövqeyə toxunan ekspert bildirib ki, qonşu dövlət olan Türkiyə Suriya qaçqınlarının qəbul edib, onlara humanitar yardım göstərib: "Suriyada baş verən hadisələrdən əziyyət çəkən xalq Türkiyənin bu təpkisini alqışlayır. Lakin Suriya müxalifəti Ankaradan silahlı dəstək istəyir. Bu isə bir o qədər də asan məsələ deyil.

Əslində regionda Türkiyə və İran arasında ciddi rəqabət gedir. Fikrimcə, Ankara başda Livan olmaqla, İraq və Suriya siyasətində də İrandan geridə qalır".

***Elnur Eltürk***
***Publika.Az***

# Bəşər Əsəd növbədənkənar seçki elan etdi

***Suriyada prezident Bəşər Əsəd xalqa müraciət edib***

O, avqustda növbədənkənar seçki keçirilməli olduğunu açıqlayıb: "Avqustda yeni parlament qura bilsək, sentyabrda köklü islahatlar paketini reallaşdıracağıq". Suriya Konstitusiyasının yenidən hazırlanması üçün komitə yaradacağını deyən prezident məsələnin 1 aya həllini tapacağını qeyd edib. Qeyd edək ki, son aylarda Suriyada hökumət qüvvələrilə nümayişçilər arasında davam edən toqquşmalarda 1200-dən artıq insane həlak olub.



***sonxeber.az***




**AZADLIQ ŞƏHİDİ**
*(Şair Eldar Baxışın əziz xatirəsinə)*

Ey azadlıq şəhidi, dağların mərd balası,
Sən bir uca qalaydın – qoç Nəbilər qalası.
Yumdu ala gözünü yamanların bəlası,
Qəlbimizin bir üzü sənsiz quzey qalacaq,
Sözlərin göy qalacaq, xatirən göy qalacaq.

Yurdun azad olanda büllur bulaqlar üstə,
Güldəstə bağlayacaq qızlar sənə, güldəstə.
Yollara göz dikəcək dağlar qulağı səsdə,
Dostların süfrəsində bir qədəh mey qalacaq,
Sözlərin göy qalacaq, xatirən göy qalacaq.

Boyunu yada salıb, ah çəkəcək xan çinar,
Böyütdüyün tingilər bar gətirir, təzə bar.
Gecikdik, əlimizdən aldı səni ruzigar,
Yarpaq pıçıltısında bizdən giley qalacaq,
Sözlərin göy qalacaq, xatirən göy qalacaq.

Şerin dilə gələcək qartalın cikkəsində,
Həkəri nərəsində, Bərgüşad nərəsində.
Gözlərindən içdiyin çeşmələrin səsində,
Qayaları ağladan bir sınıq ney qalacaq,
Sözlərin göy qalacaq, xatirən göy qalacaq.

Bu döyüş səngərində sən hara, ölüm hara,
Bağrımızın başından qoyduq səni məzara?!
Tablamazdı Prometey çəkdiyin əzablara,
Yadımızda bir şair Prometey qalacaq,
Sözlərin göy qalacaq, xatirən göy qalacaq.

Yandırdığın ocağın odu qaralmayacaq,
Tez köçsən də dünyadan, dünyan daralmayacaq.
Rahat uyu, qardaşım, şerin saralmayacaq,
Neçə ki altında yer, üstündə göy qalacaq,
Sözlərin göy qalacaq, xatirən göy qalacaq,
göy qalacaq!..

MARALLAR SU İÇİR AY IŞIĞINDA

Marallar su içir ay işığında,
Bir buğa, bir ana, bir bala maral.
Payız gecəsinin yaraşığında
Xanbulan – bir nağıl, bir ülvi xəyal,
Marallar su içir ay işığında.

Ulduzla, xəzəllə naxışlanıb göl,
Maral xalısıdır bu gözəl xalı.
Ay nuru oynayır sularda tel-tel,
Seyr elə, boylanan xallı maralı,
Marallar su içir ay işığında.

Uzanır qabağa incə gərdəni,
İçir asta-asta suyu, işığı.
Ey payız bülbülü, çaşdırma məni,
Oxuma, qoy görüm bu yaraşığı,
Marallar su içir ay işığında.
Buğanın başında şirmayı tacı,
Dikəlir, bu taya şübhəylə baxır.
Bir bulud kölgəsi tutur yamacı,
Ay qara buluddan süzülüb axır.
Marallar su içir ay işığında.

Bir tətik çəkilsə bağrım qan olar,
Namərd ovçuların gözündən iraq.
Bu gecənin hüsnü bir dastan olar,
Bax, şair gözlərim, bir doyunca bax,
Marallar su içir ay işığında.

***27.11.1997***




**Spêdeyê li nav gulistanê**

Spêdeyê li nav gulistanê gerrî m,
min li gulan nerî
û min xemên dilê xwe,
bilbilê kovandar, verevandin.

Rû bi rû
li rû yê sorgulê nerîm.
Li nav xumamiya spêdeyê
sorgulê mî na çirayan ronî dida.

Ji bedewî û ciwaniya xwe
wa jihalçû yî bû
ku qet guh nedida
derdên dilê bilbilî .

Çavên nêrgiza narî n
bi rondikên evî nê vebû n.
Çavnebariyê
alale dilgiran kir.

Sosinê şû rê xwe hilkêşa
û bo şerrî hat meydanê.
Binefşê devê xwe vekir
bo fitne û fesadê.

Hin ji wan mî na mestan
dihejî n,
hinan jî mî na meyperestan
qedeh digêrran.

Vê ji gulan fêr bibe, Hafiz:
bi xweşiyên xortanî û jiyanê
şa bibe.
Yê peyamber tenê berpirsî peyambirinê ye.

**Ger yara min bî**

Ger dijmin
bi dû min ve bin jî ,
qet natirsim
ger yara min bî .

Hêviya gihiştina cem te
min sax dihêle.
Dema ne nêzî te bim,
her kêlîkê
ji mirinê ditirsim.

Ger bi her hilm û henaseyê
pê nehesim ku ba bêna pirça te dî ne,
mî na sorgulan
ez ê xwe veçirrim.

Ma çavên min dê bikevin ser hev
dema li te dinerim? Qet na!
Ma dil dê bêyî te bikare?
Qet na!

Birî nekê li dilê min ke,
dê melhem be bo birî nên min.
Jehrê bide min,
dê derman be bo dilê min.

Ma xelk dê çawan
te wek te bi xwe bibî ne?
Nê her kes tenê
dikare hêjayiyên mî na yên xwe bibî ne.

Xelk dibêje ku
Hafiz mezinek serdema xwe ye
lê ew serê xwe
li ber toza derazî nka te ditewî ne.




**ÇEMÊ MÊDÊOYÊ**

Guşe-guşî , xuşe-xuşî , zev bê qirar,
Dimilmilî , dixulxulî pir bextewar.
Geh kef didî , geh jî dikî qal, hêwurze,
Car-carana diaxivî lewzê teze.
Çî ya, banî , zer û zinar hogirên te,
Darên merxê, sosin, rihan tew rewşa te.
Li dora te naz-bedewa danî ne war,
Dengê defê hingavtî ye banî , beyar.
Rewş birê te, Mû rada min zare-zare,
Xwî na gelêm nolî çema tev tê xare.
Neyar wê jî yasax kirye zar û ziman,
Naxulxule,namilmile, dewran, dewran.
Delî l Asê, Hesenî kê, bengî , hejar,
Çend qurnene hêsrên şevat tî nine xar.
Xû şk û birêm naxemilin, nareqisin,
Bê sû ç-gune hepsên sar da diçilmisin.
Dicle, Firat xeyî dî ne, nalî lî nin,
Zû lma giran, ew jî î dî natemlî nin.
Hî vî dikim, carekê jî bihurmije,
Bibe gulle, neyarê me tu bukuje.

**AX BÊ WELATÎ , BÊ WELATÎ**

Jana welêt, êşa welêt ez helandim, kirime rijî ,
Xerî byê da ez keribî m, hêsra çavêm kirine tijî .
Dî sa î ro ser min keniyan, min ra gotin, tu ku hatî ,
Hineka jî tinaz kirin, em nizanin çi milletî ?
Hişmetkar bû m ve ecêbê, ketim nava mitalê kû r,
Him kewgirî m, him ricî fî m, xema birin heyamê dû r.
Min got: - Kurdim, xuluqî me ser vê axê, bendê xwedê,
Nolî gişka min jî mêtye, şî rê sipî bistanê dê.
Welatê min Kurdistane, parek aran, parek zozan,
Dicle, Firat rewşa minin, bahar-bahar dikin tofan.
«Mem û Zî n»ê, «Xec û Sî yabend», «Zembî lfroş» fexra minin,
Kawe, Guhderz, Rustemê Zal tacê zêrin serê minin.
Dî rokê da rêçam heye, li cahanê ew eyane,
Dew û dozen min kirine, her çar qulbên dinê zane.
Bextêm reş hat, rozgar rû yêm nekenî ya, ji min dû r çû ,
Ra û rosqet ji min stendin, zirav kirim nolanî mû .
Tew şerqa kal min aza kir, î ro mame ez bê hêlî n,
Ewladê min sêwî mane, birçî , tezî , dikin zêrî n.

Him bin, him ser, axam kane, berê-berî da zane dinê,
Neyar dilêm kiriye çar par, dişewitim nav vê zulmê.
Tew heya min hemû birin, ser pişta min agir dadan,
Dil-hinavê min peritî n, bû ne cî yê kulan, derdan.
Qetilkara li welatê min kirine libasê sor,
Bav û birê min kirine, hepsê tarî bi destê zor.
Xasbaxçên min bû n goristan, kal û pî rê min dizêrin,
Bû kê xemle ser bi xêlî , ber perda da hî vya mêrin.
Dê û xû şkêm dilû vî nin, ji çar qulpa nayê î mdad,
Heta î ro kesek tune xwî nrêja ra bêje cellad.
Murvên dinê, reca dikim, werî n halêm bikin mêze,
Xwî nrêja ra î dî bêjin, kî ye kevin, kî ye teze.
Dem hatiye, emê heqê xwe bistî nin bê şik, ese,
Kurdistana min cinnete, zû lmê derxin î dî bese.

**XEWNÊ DA ÇÛBÛME KURDİSTANÊ**

Soqaqa ra dibuhurî m nav mitalê kû re, dû r da,
Nizanî bû m çi yê bibe, çi yê bêye î ro jor da.
Dilikijî m, dixuldirî m, geh beşer xaş, geh posî de,
Ewrê tarî tijî bû bû n, dihurmijî n zev bêhû de.
Kû r mitala ez hişyar bû m, welatê xwe min mêze kir,
Axa Xaliq boy me daye, dilekî şa min hemêz kir.
Min xast hêdî pî bavêjim, nedî t cî kî bê telp, bê xwî n,
Çar hewirdor quloz dibû , şî n û girî , qî rî n, qû jî n.
Rû yê erdê şewitî bû , qizirî bû , dixast î mdad,
Birî ndara nale-nal bû n, vediêsî ya li van heyat.
Dayî k û xû şk, zarê sêwî , zelû l-zelû l dikewgirî n,
Kalên, pî rên birçî , tezî , hejaryê da divemirî n.
Çû m goristî n, kit, zo bû bû n tirb, ser kêlkê şêr gêrî la,
Nav êgir da bû bû n rijî , gund, bajarê vike-vala.
Ji tirs-xofê, teyrik, tû jî melisî bû n ser hêlî na,
Tew terewil ketibû ne kevta, zaxa, binê lana.
Çem û kanî gevez bû bû n, daristana dikir hewar,
Gul, gulistan çilmisî bû n, hêsrên şewat danî ne xar.
Çî ya, banî dilerizî n, behra Wanê dikir î skî n,
Agrî , Sî pan xeyî dî bû n, gazin dikir wan ji zemî n.
Dilêm tî r da, çokêm sist bû n, min kişandin ax û keser,
Ber çavên min yekcar reş bû n, gelek bende, him jî beşer.
Min got: -Xaliq, wedê hebû destê te da î lac, mimkû n,
Çima mirov te xuluqand, nî gara te dike kaf-kû n.

**SORGULA TENGEZAR**

Hêy, sorgula, sitû xare tengezar,
Te jî nolî m unda kiriye welat, war.
Leman usan mirû z telî , pir xedar,
Bese î dî ewan hêsran bî nî xar.
Mala Xwedê li ser sebrê bû ava,
Ro derneyê, tav germ nake tu dera.
Dû şevên reş tim tên sibên geş-şeweq,
Pêş heqî yê bersî v dide tim neheq.
Wê xezabin tew xû nrêjên gire-hû r,
Ev cahanê î dî bibe cinnet, nû r.
Axa xwe da emê daynin reh-rî çal,
Emê bibin xwedan welat, xwedan mal.




**SƏDAQƏT**

Bəxtiyar zəng etdi, əsdi ürəyim,
Söylədi, həyatdan getdi Sədaqət.
Həmin an səbrimi kəsdi ürəyim,
Bizləri pərişan etdi, Sədaqət.

O, getdi, Vəkilin qırıldı dizi,
Dərhal da qaraldı gözəl bənizi.
Qəlbində qalacaq səmimi izi.
Vaxtından çox əvvəl itdi, Sədaqət.

Onu istəyirmiş gedən Zahar da,
Tez apardı özü qalmasın darda.
İstəyirmiş onu baldız Bahar da,
Getdi, qəlbimizi diddi, Sədaqət.

Əfruz bacım kimi qırx üç yaşında,
Getdi ağarmamış saçı başında.
Qırıldı qaməti baş yoldaşın da,
Sanki, övladları atdı, Sədaqət.
Tabutun önündə əyildi başı,
Əmirin gözündə qalmadı yaşı.
Elə də ağladı Aslan qardaşı,

**GÖRÜRƏM**

Allahım, işinə mat qalmışam mən,
Nə qədər yaxşını sıxır, görürəm.
Bilmirəm nə üçün, eyləyir nədən,
Yıxılmaz olanı yıxır, görürəm.

Xeyir qismət olur yaramazlara,
Əqildən, kamaldan çox dayazlara.
Var-dövləti verir ağlıazlara,
Onların qəlbində paxır görürəm.

Susub ət tökürsən sözlər alanda,
Ona layiq deyil nə çul, palan da.
Elə ki xəlvətdə o tək qalanda,
Süfrəsində şərab, çaxır görürəm.

Yığır dörd yanına kişibazları,
Həyası pozulmuş o nasazları.
Qız adını itirmiş o qızları,
Özünə ləkələr yaxır, görürəm.

Onları görməyə əqilim sazdı,
Kişilər azalıb, indi çox azdı.
Onların beyini tamam nasazdı,
Utanmazlar sırğa taxır, görürəm.

Doğru söz söyləsən əgər nadana,
Başa salmaq üçün gələrsən cana.
Belə hallar təsir edir Nərimana,
Dünya pozulubdur axır, görürəm.
04.10.2010.

**NİYƏ UNUTDUN?**

Novruz bayramınız mübarək olsun,
Oduna yananı, niyə unutdun?
İstəmənəm rəngin saralsın, solsun,
Hər şeyi qananı, niyə unutdun?

Yoxsa yaddan çıxıb o gözəl çağlar,
Gəzdiyimiz yerlər, bağçalar, bağlar.
Yadıma düşdükcə ürəyim ağlar,
Sevdiyin bu canı, niyə unutdun?

Mən səni sevirdim yaxınım kimi,
Baxdıqca çalırdı qəlbimin simi.
Sən idin qəlbimin gündə hakimi,
Baxıb utananı, niyə unutdun?

Deyirdin, sevəcəm son anımadək,
Sevgilər olacaq daimi kömək.
Mənim kimi sevən yaranır tək-tək,
Sevdiyin aslanı, niyə unutdun?
Yoxsa vəfasızdı tatın hər qızı,
Nə tez unutmusan sənsiz yalqızı?
Ayda bircə kərə soruş sən azı,
Yediyimiz nanı, niyə unutdun?

Üzümə gülürdün bizə gələndə,
Gülüşə cavabı verirdim mən də.
Səmimi olurdum geri dönəndə,
Milli Nərimanı, niyə unutdun?

# Türkiyənin İranla bağlı danışıqlarda vasitəçi rolu azala bilər



Tərəflər bazar günü İstanbulda İranın mübahisəli nüvə proqramı ilə bağlı danışıqları məhsuldar adlandırıb. Lakin təhlilçilərin firkincə, Türkiyənin məsələdə rolu İranın Türkiyənin xarici siyasəti, xüsusilə də Suriyada dəyişikliklər çağırışına qoşulması ilə bağlı artan narazılığına görə getdikcə zəifləyir.

Türkiyə əvvəllər İranın dinc məqsədli nüvə proqramını dəstəkləmiş və iki il bundan əvvəl İrana qarşı BMT sanksiyaları əleyhinə çıxış etmişdi. Lakin İranın bir sıra məsələlərdə özünü Qərb müttəfiqlərindən təcrid etməsi Türkiyə və İran arasında münasibətlərin xarakterinin dəyişməsinə gətirib çıxarmışdır.

Avropa Parlamentinin Türkiyə komitəsinin üzvü Riçard Hovitt deyir ki, Türkiyə İran məsələsində öz kursuna qayıdıb. Riçard Hovitt: "Türkiyə İran məsələsində müəyyən dərəcədə inamı itirmişdi və Türkiyənin sanksiyaların əleyhinə çıxış etməsi ictimai əlaqələrə öz təsirini göstərmişdir. Biz BMT və Avropa İttifaqında bu sanksiyalar üzərində böyük iş aparmışdıq."

Türkiyənin rolunun dəyişməsində əsas faktor Tehranın mühüm regional müttəfiqi olan Suriyadır.

Bir zamanlar Türkiyənin Baş naziri Rəcəp Tayyib Ərdoğan və Suriya prezidenti Beşar Əl-Əsəd arasında yaxın münasibətlər Suriyada müxalifətə qarşı zorakı təqiblərə görə tədricən zəifləşmişdir. Türkiyə hökumətinin Suriya müxalifətini dəstəkləməsi İranı qəzəbləndirmişdir. Bu özünü İranın keçən həftə BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü üstəgəl Almaniya formatında keçən danışıqların İstanbulda keçməsini əngəlləmək səylərində göstərmişdir. Cənab Ərdoğan buna qısaca cavab verərək, "İran düzgünlüyü olmadığı üçün beynəlxalq prestijini getdikcə itirir" demişdi.

Sonda danışıqlar İstanbulda keçdi, lakin İran və digər tərəflər növbəti görüşün Bağdadda keçirilməsinə dair razılıq əldə etdilər.

Kadir Has universitetində tədqiqatçı Soli Özelin sözlərinə görə, münasibətlərdə müəyyən soyuqluğa baxmayaraq, Tehran Ankaranın faydalı olduğuna inanır.

Soli Özel:"İranın Türkiyənin xeyirxahlığına ehtiyacı var, çünki həqiqətən də Türkiyə siyasi həll yoluna çalışan yeganə ölkədir."

Türkiyə təbii qaza olan ehtiyacının 80 faizini İran və İranın əsas müttəfiqlərindən olan Rusiya vasitəsilə ödəyir. Təhlilçi Özelin sözlərinə görə, bu, İranı Türkiyənin tələsik addımlar atmayacağına əmin edir.

Bəzi tənqidçilər Türkiyənin İranın nüvə proqramı ilə bağlı məsələdə vasitəçi rolunu itirə biləcəyini düşünür. Milliyet qəzetinin müxbiri Semih İdiz Ankaranın gələcəkdə potensial rol oynayacağını deyir. Semih İdiz:"İrana dair danışıqlar öz yolu ilə gedir. Lakin burada tərəflər öz mövqelərinə sadiq qalır. Əgər tərəflərin açıq və aydın imkanları olan bir ölkəyə ehtiyacı olsa, burada Türkiyə üçün yer var."

BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü üstəgəl Almaniya formatında İrana dair danışıqların növbəti raundu may ayında Bağdadda keçiriləcək. Danışıqlar zamanı Tehrandan beynəlxalq ictimaiyyətin İranın nüvə enerjisindən silah istehsalında istifadə edəcəyinə dair narahatlıqları azaltmaq üçün addımlar atmasının istəniləcəyi gözlənilir.

Tehran belə bir addımın atılması üçün beynəlxalq sanksiyaların zəiflədilməsini istəyib. Təhlilçilərin böyük hissəsi əks tərəfin tələblərinə cavab verməyin çətin olacağını deyir.

***Amerikanın səsi***

# Suriyada itkin düşən türk jurnalistlər İranın köməyi ilə azad edilib



Suriyada iki ay bundan öncə hadisələri işıqlandırarkən itkin düşmüş iki jurnalist İranın köməyi ilə azad edilib. Bu haqda Türkiyənin Xarici İşlər naziri Əhməd Davutoğlu açıqlama verib. Tehrana gətirilən jurnalistlər Anadolu xəbər agenliyinə onların sağlıq durumunun yaxşı olduğunu və ailə üzvlərilə görüşü səbirsizliklə gözlədiklərini deyiblər. İslam meylli Milat qəzetinin müxbiri Adem Özköse və video operator Hamit Coşkun mart ayının əvvəlində Hatay sərhəddindən İdlib vilayətinə keçəndən sonra itkin düşmüşdü. İdlib prezident Bəşar Əl-Əsədə qarşı hərəkatın mərkəzi hesab edilir. Jurnalistlərin kim tərəfindən saxlandığı məlum deyil. Türkiyənin Suriya hökumətini nümayişlərin zorakılıqla dağıdılmasına görə tənqid etməsi Ankara və Dəməşq arasında münasibətlərin pisləşməsinə gətirib çıxarmışdır. Türkiyə Dəməşqdə səfirliyini bağlamış və Suriyaya uçuşları təxirə salmışdır. Jurnalistlərin İranın köməyilə azad edilməsi Tehranın yaxın müttəfiqi olan Suriyada nüfuzunun göstəricisi kimi qiymətləndirilir. İran və Suriya Qərb ictimaiyyəti tərəfindən təcrid edilib.

***voanews.com***

# Türkiyənin Birgə Qərargahlar rəisinin ABŞ-a səfəri başa çatıb



**ABŞ-ın Birgə Qərargahlar rəisi Martin Dempsi Pentaqonda Türkiyə ordu generalı Necdet Özeli qəbul edərkən**

ABŞ generalı Martin Demsinin dəvətilə Birləşmiş Ştatlarda olan Türkiyənin Birgə Qərargahlar rəisi gerenal Necdet Özəl səfərini başa vurub.

Səfər zamanı Türkiyə generalı Virginya ştatında Lenqli hərbi hava qüvvələrinin bazası, Floridada Ki Vest hərbi dəniz və Tundal hərbi hava qüvvələrinin bazalarını ziyarət edib. Floridada Valparasiso hərbi hava qüvvələrinin bazasında general Necdet Özelə Türkiyənin almağı planlaşdırdığı F-35 döyüş təyyarələrilə ilə bağlı məlumat verilib.

Ordu generalı səfər çərçivəsində ABŞ-ın Müdafiə naziri Leon Panetta ilə görüş keçirib.

Mayın 10-da Pentaqonda türk genralının ABŞ-ın Birgə Qərargahlar rəisi ordu generalı Demsi ilə görüşü olub. Görüş zamanı iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq, habelə Türkiyənin regionda liderliyi məsələləri geniş müzakirə olunub.

ABŞ generalı Türkiyəni dost və müttəfiq ölkə adlandıraraq, iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığın davam etdiriləcəyini deyib.

# Türkiyə qanunvericiləri yeni konstitusiyanın mətni üzərində işə başlayıb

***1980-ci ildə hərbi çevrilişdən iki il sonra təsdiq edilmiş konstitusiyanı əvəz edəcək yeni sənəddə mötədil hökumətin idarə etdiyi ölkədəki dəyişikliklə əks etdiriləcək***

Türkiyə partlamentinin üzvləri bu həftə yeni konstitusiyanı yazmağa başlayaraq, ölkənin hərbi keçmişi ilə bağlılığına son qoyacaq bir addım atır. Lakin yeni konstitusiyaya ehtiyacın olması ilə bağlı konsensusa baxmayaraq, proses ətrafında fikir ayrılıqları davam edir.

Türkiyə parlamenti 1980-ci ildə hərbi çevrilişdən iki il sonra təsdiq edilmiş konsitusiyanı yenisi ilə əvəz etmək üçün mətn üzərində işə başlayıb. Yeni konstitusiyada hazırda mötədil hökumət tərəfindən idarə edilən ölkədəki dəyişikliklər əks etdiriləcək.

İstanbulda Bahçeşehir universitetində siyasi elmlər üzrə mütəxəssis Cengiz Aktar yeni konstitusiyanın ölkənin gələcəyi üçün əhəmiyyətini vurğulayıb. O bunu Türkiyə Cumhuriyyətinin tarixində mühüm hadisə adlandıraraq, ölkənin gələcək inkilafı yollarını göstərək və bütün insanların birgə yaşayşını təmin edəcək yeni sosial müqaviləyə ehtiyacı olduğunu bildirib. Hərbi çevrilişdən sonra hazırlanmış hazırkı konstitusiyada azadlıqların müdafiəsi deyil, onların məhdudlaşdırıldığı deyilir.

Baş nazir Rəcəp Tayyib Ərdoğan bu ilin sonuna qədər hazırlanacaq sənəddə ölkə deyil, vətəndaşın mərkəzdə duracağını deyib.

Vətəndaş cəmiyyətləri qrupları, dini qurumlar və vətəndaşlar daha liberal konsti-



tusiyanın yazılması prosesində iştiraka çağırılıblar. Ölkənin başlıca kürd partiyası olan BDP də prosesdə iştirak edir. Partiyanın parlamentdə təmsilçisi Ertuqral Kürkçü ehtiyatla nikbinliyini bölüşür. O bütün tərəflərin daha yaxşı konstitusiyanın yazılması prosesində iştirakını müsbət inkişaf adlandırır. Lakin onun sözlərinə görə, əsas çətinlik baş nazir Ərdoğanın prezidentlik hakimiyyətinin bərqərar edilməsilə bağlı istəkləri və ambisiyaları ilə bağlıdır.

Bəzi təhlilçilər Baş nazir Ərdoğanın daha güclü prezidentlik yaratmaq istəklərini Türkiyədə ən böyük siyasi sirr kimi şərh edir. Cənab Ərdoğan 2015-ci ildə vəzifə başında üçüncü dönəm müddəti bitdikdən sonra baş nazir postunda qalmayacağını deyib.

Bazar günü baş nazir deyib ki, prezidentlik məsələsi müzakirə obyekti ola bilər. Lakin bütün müxalifət partiyaları hazırkı güclü parlamentar sistemdə hər hansı dəyişikliyin əleyhinə çıxış edir.

Siyasi təhlilçi Aktar bu mübahisələrin yeni konstitusiya ilə bağlı hazırkı siyasi konsensus, hətta Türkiyədə demokratiya üçün təhlükə yarada biləcəyini deyir. Onun sözlərinə görə, bu, baş nazirə yaxın olan partiya ideoloqlarının nəzərdə tutduğu bir sistemdir. O bu sistemi ABŞ-da nəzarət və tarazlığın mövcud olduğu sistemdən daha çox, Rusiyadakı kimi hakimiyyətin bir şəxsin əlində cəmləşdiyi bir modelə daha oxşar olduğunu qeyd edir.

Yeni konstitusiyanın taleyi və prezidentlik sisteminə mümkün dəyişikliyin taleyi parlament və son nəhayətdə xalqın əlindədir. Cənab Ərdoğanın Ədalət və İnkişaf partiyası referenduma ratifikasiya olunacaq yeni konstitusiyanın qəbulu üçün kifayət qədər dəstəyə malikdir. Lakin müşadəçilər belə qəbul edilmiş konstitusiyanın ölkəni birləşdirmək əvəzinə, onun daha da qütbləşməsinə gətirib çıxaracağından ehtiyat edir.

# Laçınlar oylağı q...

## Mayın 18-də Laçın rayonunun Ermənistan silahlı...

Ölkəmizin cənub-qərbində, dağlıq ərazidə (işğalçı Ermənistanla sərhəddə) yerləşən Laçın rayonu səfalı təbiəti, zəngin tarixi-mədəni abidələri ilə məşhur idi. Dünyada nadir ağac sayılan qırmızı dəmirağac meşələri bu rayonun ərazisində yerləşir. Laçın mineral suları, kobalt, uran, civə,



qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, dərman bitkiləri ilə zəngin bölgədir. 1992-ci ilin mayında Laçını işğal edən erməni silahlı qüvvələri bölgənin təbii ehtiyatlarını, maddi-mədəni sərvətlərini də talan ediblər.

İşğaldan əvvəl Laçın rayonunda 217 mədəniyyət müəssisəsi, 142 səhiyyə obyekti, 133 idarə və müəssisə, 100 ümumtəhsil məktəbi, 5 məktəbəqədər müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 texniki-peşə məktəbi vardı.

Rayonun ərazisi vaxtilə (XVIII əsr) Qarabağ xanlığının tərkibində, XIX əsrdə Şimali Azərbaycanın çar Rusiyasına birləşdirilməsindən sonra isə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olub. 1918-1920-ci illərdə rayon Azərbaycan Xalq Cümhuriyyətinin Qarabağ general-qubernatorluğunun tərkbinə, sovetləşmədən sonra isə Şuşa qəzasının tərkibinə verilib. 1923-cü ildə Respublika Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Qubadlı, Kəlbəcər və Laçın torpaqları ərazi-inzibati vahid olaraq Kürdüstan qəzasında birləşdirilib. Qəzanın inzibati mərkəzi əvvəlcə Pircahan, sonra Minkənd, daha sonra isə Laçın olub. Laçın şəhəri (kəndi) əvvəllər Abdallar adlanıb. Laçın adı bölgəyə əslən bu torpaqdan olan yazıçı Tağı Şahbazi Simurğun təşəbbüsü ilə 1923-cü ildə verilib.

Laçın rayonu ayrıca ərazi-inzibati vahid olaraq 1930-cu ildə yaradılıb. Rayonun ərazisi 1883 kv km-dir. Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə respublikamızın bütün bölgələri kimi, Laçın rayonunun da sosial-iqtisadi, mədəni həyatının inkişafı ilə bağlı mühüm qərarlar qəbul edilib.

Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin "Laçın rayonu zəhmətkeşlərinə mədəni-məişət xidmətlərini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 16 noyabr 1971-ci il və Azərbaycan KP MK-nın bürosunun "Laçın şəhərinin 50 illiyi barədə" 6 avqust 1974-cü il tarixlərdə qəbul olunmuş qərarlar rayonun sosial-iqtisadi və mədəni həyatının, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına güclü təkan vermişdi. Sonrakı illərdə rayonun yaşayış məntəqələri abadlaşdırılmış, televiziya ötürücüsü stansiyaları qurulmuş, bütün kəndlər başdan-başa elektrikləşdirilmiş, telefon, radio, o cümlədən, Laçın şəhərinə və rayonun 53 kəndinə təbii qaz çəkilmişdi.

Laçın rayonu 120 kənddən, 1 şəhərdən və 1 qəsəbədən ibarət idi. Hazırda respublikamızın müxtəlif bölgələrində məskunlaşmış Laçın əhalisinin sayı (2008-ci il) 66 min nəfərdir.

### Laçının işğal altında qalan tarixi-mədəni abidələri

1992-ci ilin 18 may işğalından öncə Laçın rayonunun ərazisində 200-ə yaxın tarixi, mədəniyyət və memarlıq abidələri, onlarla kurqan, qala tipli arxeologiya baxımından faydalı olan abidələr, çoxlu sayda qəbirüstü abidələr, stellalar, at, qoç fiqurları, süjetli daşlar qeydə alınmışdı.

Ərazidə olan abidələrin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Mütəxəssislərin tədqiqatlarına görə, həmin abidələrinin çoxu eramızdan əvvələ aiddir.

Bu yerlərin mürəkkəb relyefi, sərt iqlimi olduğundan tarixən bir çox çay keçidlərində, yolların keçilməz hissələrində körpülər inşa edilib. Onlar əsasən birtağlı və yaxud ikitağlı körpülərdir.

Aşağıda adları çəkilən abidələr rayon ərazisində olan abidələrin təxminən üçdə ikisini təşkil edir.

1. Abdallar (Bəylik) kəndi ərazisində Həkəri çayı üzərində körpü (XVIII əsr), daş qutu-dəmir dövrü, qəbiristanlıq.
2. Zabux kəndi ərazisində Sümüklü qəbiristanlığı, XVI əsrə aid Xallanlı qəbiristanlığı.
3. Malıbəy kəndi ərazisində qədim qəbiristanlıq.
4. Kosalar kəndi ərazisində IX əsrə aid Ağoğlan qəsri, qədim qəbiristanlıq.
5. Soltanlar (Hüsülü) kəndi ərazisində 1761-ci ilə aid Soltan Əhməd sarayı, XIV əsrə aid qədim qəbiristanlıq.
6. Zeyvə kəndi ərazisində Soltanbaba türbəsi, Şeyx Əhməd türbəsi, Türbə, qədim qəbiristanlıq.
7. Qaraqışlaq kəndi ərazisində XI əsrə aid məscid, Dəmirovlu Pir-Məbəd.
8. Sadınlar kəndinin mərkəzində XVII əsrə aid məbəd.
9. Hacılar kəndi ərazisində qədim qəbiristanlıq, bulaq (abidə).
10. Vağazin kəndi ərazisində məbəd.
11. Quşçu kəndi ərazisində XV əsrə aid Uşaq qalası, böyük Bulaq, Korca bulaq, Sadınlar qalacığı.
12. Mirik kəndi ərazisində XV əsrə aid qala, məbəd.
13. Bozlu kəndi ərazisində qəbiristanlıq, Xaçın yalı ərazisində XV əsrə aid Xaçın daşı.
14. Əhmədli kəndi ərazisində XVII əsrə aid məbəd, "Vəng" qəbiristanlığı.
15. Minkənd kəndi ərazisində XV əsrə aid Minkənd çayı üzərində ikitağlı, Abaxeyir ərazisində birtağlı körpü, məbəd.
16. Şeytanlı kəndi ərazisində birtağlı körpü.
17. Qaragöl ərazisində məscid, qəbiristanlıq.
18. Hoçaz kəndi ərazisində mağara, məbəd.
19. Soyuqbulaq kəndi ərazisində bulaq (abidə), məbəd.
20. Zabux kəndi ərazisində körpü (1988-ci ildə dağıdılıb).
21. Güləbird kəndi ərazisində XV əsrə aid Qız qəbri abidəsi, dəmir dövrünə aid Kurqan, orta əsrə aid qədim qəbiristanlıq, bayatı ustadı Sarı Aşığın qəbri.
22. Cicimli kəndi ərazisində XVI əsrə aid Məlik Əjdər türbəsi, XVII-XVIII əsrlərə aid türbə, orta əsrlərə aid Çoban daşı və qədim qəbiristanlıq.
23. Malxələf kəndi ərazisində XVII əsrə aid Xəlifə türbəsi, qədim qəbiristanlıq. Sınıq körpü.
24. Aşağı Fərəcan kəndi ərazisində X əsrə aid məbəd, Fərəcan-Güləbird yolunda körpü, qədim qəbiristanlıq.
25. Sus kəndi ərazisində XVII əsrə aid bulaq.
26. Seyidlər kəndi ərazisində XVII əsrə aid bulaq, qədim qəbiristanlıq, Pircançay üzərində qədim körpü.
27. Pircahan kəndi ərazisində XVII əsrə aid bulaq, XI əsrə aid Gavur qalası.
28. Korcabulaq kəndi ərazisində məbəd.
29. Ziyrik kəndi ərazisində dəmir dövrünə aid Rizvan meşəsində kurqan.
30. Ərikli kəndi ərazisində XVI əsrə aid Qarasaqqal türbəsi.
31. Piçəniş kəndi ərazisində məbəd.
32. Şəlvə kəndi ərazisində məbəd.
33. Qorçu kəndi ərazisində məbəd.
34. Laçın şəhərində (1941-1945-ci illər) Böyük Vətən müharibəsində həlak olanların xatirə kompleksi.

1992-ci ilin 18 may işğalından sonra bu tarixi, mədəni və dini abidələr erməni qüvvələri tərəfindən dağıdılıb və talan edilib

### Qarabağ > Münaqişə > İşğal olunmuş rayonlar > Laçın

**Laçın rayonu**



**(İşğal tarixi: 18 may 1992-ci il)**

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində dağlıq ərazidə yerləşir.

69 min əhalisi olan bu səfali məkan 120 kənddən, 1 şəhərdən və 1 qəsəbədən ibarət iidi.

Laçın 1923-cu ilə qədər Abdallar, sonra isə Laçın adlanıb.

Rayonda əsasən maldarlıq, arıçılıq, əkinçilik, taxta-şalban istehsali inkişaf etmişdi.

Hazırda Laçın rayonunun əhalisi Azərbaycan Respublikasının müxtəlif ərazisinə səpələnmişdir.

**Ümumi məlumat (işğaldan öncə):**

Ümumi ərazi, [kv.km] 1883.00
Əhalinin ümumi sayı 65507
Kəndlərin sayı 125
Qəsəbələrin sayı 1
İri və orta müəssisələrin sayı 133
Məktəbəqədər uşaq müəssisələrinin sayı 3
Ümumtəhsil məktəblərinin sayı 101
Texniki, orta ixtisas və peşə məktəblərinin sayı 2
Ali təhsil müəssisələrinin sayı 0
Xəstəxanalar və tibb müəssisələrinin sayı 20
Mədəniyyət ocaqlarının sayı 217

### Tarixi haqqında qısa məlumat

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində dağlıq ərazidə yerləşir.

Şimaldan Kəlbəcər rayonu, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, cənubdan Qubadlı, qərbdən isə Ermənistan Respublikası ilə həmsərhəddir.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili ilə əlaqədar Şuşa qəzası ləğv olunmuş və əvəzində Ağdam qəzası təşkil edilmişdir.

1923-cü ildə Respublika Mərkəzi İcraiyyə Komitəsinin qərarına uyğun olaraq Qubadlı, Kəlbəcər və Laçın torpaqları vahid qəza halında birləşdirilərək Kürdüstan qəzası yaradılmışdır. Qəza mərkəzi əvvəlcə Pircahan, sonra Minkənd, daha sonra isə Laçın təsdiq edilmişdir.

Laçın şəhərinin yerini Tağı Şahbazi Simurğ seçmiş və bu adı da ona o özü vermişdir.

Laçın rayonu 1924-cü ildə yaradılmış, ərazisi 1883 kvadrat km-dir. 01 yanvar 2004-cü il tarixə əhalisi 65507 nəfərdir. Rayonun mərkəzi Laçın şəhəridir, əhalisi 14500 nəfərdir. Rayon üzrə 15310 təsərrüfat mövcuddur.

Əhalinin sıxlığı hər kvadrat km-ə 36 nəfər, hər sakinə 18 kvadrat km sahə düşürdü.

Mərkəzləşdirilmiş su təchizatı sistemindən bir gündə 4800 kub su, qaz şəbəkəsindən 173000 kub qaz, 985000 kq maye qaz istehlak olunurdu.

Laçın şəhərinin böyüyüb inkişaf etməsində ilk addımları Tağı Şahbazi Simurğ, Hüsü Hacıyev, İsmayıl Şərifov, Canbaxış Abdullayev və onlarca başqaları atmış, onların çox böyük fədakar xidmətləri olmuşdur.

İkinci dünya müharibəsi illərində 3660 nəfər Laçın rayon sakini cəbhəyə yollanmış, onlardan 2426 nəfəri geri qayıtmamışdır.

Şosse yol Laçına 1950-ci illərin əvvəllərindən çəkilməyə başlamışdır.

Respublikanın paytaxtı Bakı şəhəri ilə şosse yolla ara məsafəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə ara məsafəsi isə 60 km olmuşdur.

1962-ci ildən sonra isə əvvəlcə şəhərin, sonra isə kəndlərin elektrikləşdirilməsi, radioləşdirilməsi və telefon xətlərinin çəkilişi işinə başlanmışdır.

Rayonun cəmi torpaq sahəsi 166488 hektar olmuşdur ki, ondan da 75781 hektarı kənd təsərrüfatına yararlı, 12102 hektarı isə əkin yeri idi. Həmin torpaqlardan 1515 hektarı sututar torpaqlardan ibarət idi.

Rayon ərazisinin 927 hektarını həyətyanı, 33205 hektarını meşə, 72000 hektarını yaylaq sahələri təşkil edirdi.

Rayonda şəhər, qəsəbə və 125 kəndin bazasında 48 şəhər, qəsəbə və kənd inzibati-ərazi vahidləri üzrə nümayəndəliklər fəaliyyət göstərirdi.

Rayonun iqtisadiyyatının əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi.

Azərbaycanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nin və Nazirlər Sovetinin "Dağ rayonlarının iqtisadiyyatını daha da yüksəltmək tədbirləri haqqında", "Laçın rayonu zəhmətkeşlərinə mədəni-məişət xidmətlərini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 16 noyabr 1971-ci il və Azərbaycan KP MK-nin bürosunun "Laçın şəhərinin 50 illiyi barədə" 6 avqust 1974-cü il tarixlərdə qəbul olunmuş qərarlar rayonun sosial-iqtisadi və mədəni həyatının, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına çox böyük güclü təkan vermiş, təsərrüfatların maddi-texniki bazası xeyli möhkəmlənmiş, orta məktəb məzunlarının güzəştlə ali məktəblərə qəbu-

# ədim yurdumuz...

## qüvvələri tərəfindən işğalının 20 ili tamam oldu

luna xüsusi yer verilmişdir.

Şəhər və kəndlər abadlaşdırılmış, şəhərlərdə 1000 nömrəlik avtomat-telefon, televiziya ötürücüsü stansiyaları qurulmuş, bütün kəndlər başdan-başa telefonlaşdırılmış, radiolaşdırılmış, elektrikləşdirilmiş, Laçın şəhərinə və rayonun 53 kəndinə təbii qaz çəkilmişdir.

Bu diqqət və qayğı sayəsində onlarla təhsil, mədəniyyət, məişət, səhiyyə obyektləri, heyandarlıq kompleksləri və sair sosial-mədəni və kənd təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir. Kəndlərə şosse yollar çəkilmiş, Şuşa-Laçın yolu əsaslı surətdə yenidən tikilmiş, asfalt zavodları, daş karxanaları, əhəng, pemoksol, yerli sənaye, toxuculuq sexləri istifadəyə verilmiş, Sumqayıt Alüminium və maşınqayırma zavodlarının, Bakı 1№-li tibb texnikumunun filialları açılmış, mərmər yataqları istifadəyə verilmiş, ticarət, ictimai-iaşə, mədəniyyət, rabitə və kommunal xidmətlərin şəbəkələri xeyli genişləndirilmişdir.

Görülmüş tədbirlər nəticəsində rayonda 133 idarə və müəssisə, o cümlədən 23 tikinti və 16 sənaye müəssisələri fəaliyyət göstərmişdir.

Rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtombil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radiotelefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur.

1992-ci ilin mayın 18-də Laçın rayonu xəyanətin qurbanı oldu və erməni silahlı qüvvələri tərəfindən işğal edildi.

Laçının işğalı ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.

264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır.

Bütün var dövlətlərimizi yeraltı və yerüstü sərvətlərimiz talan-qarət olmuş, torpaqlarımız hərraca qoyulmuş, ata-baba qəbiristanlıqlarımız düşmən tapdağında qalmış, rayonun 65507 nəfər əhalisi Respublikanın 59 şəhər və rayonlarına, "Taxta-körpü" qışlaqlarındakı 84 obaya məcburi köçkün düşmüşdür.

### İqtisadi-təsərrüfat potensialı

Rayonda iri dövlət müəssisələrindən olan 9 heyvandarlıq sovxozu, o cümlədən Kirov adına südçülük damazlıq sovxozu, yağ-pendir zavodu, konserv zavodu, ət tədarükü və qəbulu məntəqəsi, yun və göndəri qəbulu idarəsi, kimya birliyi, baytarlıq müalicəxanası, tikinti materialları istehsalat birliyi, ağac emalı sənayesi, yol və tikinti quraşdırma idarəsi, Sumqayıt Alüminium və maşınqayırma zavodlarının filialları, yüngül sənaye və yerli sənaye kombinatları, iki ədəd asfalt zavod, beton zavod, texniki-təchizat birliyi, suvarma sistemləri idarəsi, 23 tikinti idarəsi, mərmər, əhəng, pemoksol və toxuculuq sexləri, iki ədəd daş karxanası, avtonəqliyyat müəssisəsi, təhsil, səhiyyə, mədəniyyət, ticarət, ictimai-iaşə, rabitə, məişət, kommunal müəssisələri və digər idarə və müəssisələr fəaliyyət göstərirdi.

Ümumiyyətlə, rayonda 133 iri və xırda idarə, müəssisə və təşkilat, 52 kolxoz, 9 sovxoz və payçı kəndli fermer təsərrüfatı fəaliyyət göstərmişdir.

### Nəqliyyat infrastrukturu

Dağlıq Qarabağı Ermənistan Respublikasının Gorus rayonu ilə birləşdirən Respublika əhəmiyyətli şosse yolun uzunluğu Laçın şəhərindən Gorus rayonuna kimi 54 km, Şuşa rayonuna isə 40 km, cəmi 94 km-dir.

Respublika əhəmiyyətli Laçın-Qubadlı yolu 77 km-dir.



Rayon üzrə cəmi 2130 km uzunluğunda Respublika və yerli əhəmiyyətli yol, 92 ədəd körpü vardır.

Respublikanın paytaxtı Bakı şəhəri ilə şosse yolla ara məsayəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə 60 km-dir.

### Tarixi və memarlıq abidələri

Rayonun ərazisində 200-ə yaxın tarixi, mədəniyyət və memarlıq abidələri, onlarla kurqan, qala tipli arxeologiya baxımından faydalı olan abidələr, çoxlu sayda qəbirüstü abidələr, stellalar, at, qoç fiqurları, süjetli daşlar, eləcə də bu ərazi çoxlu təbii sərvətləri, qiymətli minelar suları ilə zəngindir.

Bu ərazidə olan abidələrin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Alimlərimizin verdiyi məlumata əsasən bu ərazidə olan Qafqaz Albaniyası dövrü abidələrinin bir çoxu bizim eranın xristianlıqdan əvvəlki dövrünə aiddir.

Bu yerlərin mürəkkəb relyefi, sərt iqlimi bir çox çay keçidlərində, yolların keçilməz hissələrində körpülərin inşasına səbəb olmuşdur. Onlar əsasən bir tağlı və yaxud iki tağlı körpülərdir.

Rayonun ərazisində aşağıda adları çəkilən abidələr rayon ərazisində olan abidələrin yalnız 70%-ə qədərini təşkil edir.

1. Abdallar (Bəylik) kənd ərazisində: Həkəri çayı üzərində körpü XVIII əsr, daş qutu-dəmir dövrü, qəbiristanlıq.
2. Zabux kəndi ərazisində: Sümüklü qəbiristanlığı, XVI əsrə aid Xallanlı qəbiristanlığı.
3. Malıbəy kəndi ərazisində: qədim qəbiristanlıq.
4. Kosalar kəndi ərazisində IX əsrə aid Ağoğlan qəsri, qədim qəbiristanlıq.
5. Soltanlar (Hüsülü) kəndi ərazisində: 1761-ci ilə aid Soltan Əhməd sarayı, XIV əsrə aid qədim qəbiristanlıq.
6. Zeyvə kəndi ərazisində Soltanbaba türbəsi, Şeyx Əhməd türbəsi, Türbə, qədim qəbiristanlıq.
7. Qaraqışlaq kəndi ərazisində XI əsrə aid məscid, Dəmirovlu Pir-Məbəd.
8. Sadınlar kəndinin mərkəzində XVII əsrə aid məbəd.
9. Hacılar kəndi ərazisində: qədim qəbiristanlıq, bulaq (abidə).
10. Vağazin kəndi ərazisində məbəd.
11. Quşçu kəndi ərazisində XV əsrə aid Uşaq qalası, böyük Bulaq, Korca bulaq, Sadınlar qalacığı.
12. Mirik kəndi ərazisində XV əsə aid qala, məbəd.
13. Bozlu kəndi ərazisində qəbiristanlıq, Xaçın yalı ərazsində XV əsrə aid Xaçın daşı.
14. Əhmədli kəndi ərazisində XVII əsrə aid məbəd "Vəng" qəbiristanlığı.
15. Minkənd kəndi ərazisində XV əsrə aid Minkənd çayı üzərində ikitağlı, Abaxeyir ərazisində bir tağlı körpü. Məbəd.
16. Şeytanlı kəndi ərazisində Birtağlı körpü.
17. Qaragöl ərazisində məscid, qəbiristanlıq.
18. Hoçaz kəndi ərazisində mağara, məbəd.
19. Soyuqbulaq kəndi ərazisində Bulaq (abidə), Məbəd.
20. Zabux kəndi ərazisində körpü (1988-ci ildə dağıdılıb).
21. Güləbird kəndi ərazisində XV əsrə aid Qız qəbri abidəsi, dəmir dövrünə aid Kurqan, Qız qəbri (kurqan), orta əsrə aid Qədim qəbiristanlıq, Bayatı ustadı Sarı Aşığın qəbri.
22. Cicimli kəndi ərazisində XVI əsrə aid Məlik Əjdər türbəsi, XVII-XVIII əsrlərə aid türbə, orta əsrlərə aid Çoban daşı və qədim qəbiristanlıq.
23. Malxələf kəndi ərazisində XVII əsrə aid Xəlifə türbəsi, qədim qəbiristanlıq. Sınıq körpü.
24. Aşağı Fərəcan kəndi ərazisində X əsrə aid məbəd, Fərəcan Güləbird yolunda körpü, qədim qəbiristanlıq.
25. Sus kəndi ərazisində XVII əsrə aid bulaq.
26. Seyidlər kəndi ərazisində XVII əsrə aid bulaq, qədim qəbiristanlıq, Pircançay üzərində qədim körpü.
27. Pircahan kəndi ərazisində XVII əsrə aid bulaq, XI əsrə aid Qovur qalası.
28. Korcabulaq kəndi ərazisində məbəd.



29. Ziyrik kəndi ərazisində dəmir dövrünə aid Rizvan meşəsində kurqan.
30. Ərikli kəndi ərazisində XVI əsrə aid Qaraşaqqal türbəsi, araxışda türbə və qədim qəbiristanlıq.
31. Piçəniş kəndi ərazisində məbəd.
32. Şəlvə kəndi ərazisində məbəd.
33. Qorçu kəndi ərazisində məbəd.
34. Laçın şəhərində (1941-1945-ci illər) Böyük Vətən müharibəsində həlak olanların xatirə kompleksi.

1924-cü ildən sonra rayonda inşa olunmuş körpülər, bulaqlar, abidələr və abidə kompleksləri və s.

Qeyd: Ermənistan silahlı qüvvələrinin işğalı zamanı rayonda mövcud olan bu tarixi, mədəni və dini abidələr dağıdılmışdır.

### Görkəmli şəxslər haqqında məlumat

Laçın rayonunun təbiəti, coğrafi relyefi, havası, suyu, orada yaşamış insanların bir çoxunun igid, qəhrəman, mərd, mübariz, görkəmli şəxsiyyətlər kimi yetişmələrinə və formalaşmalarına heç şübhəsiz ki, çox böyük təsir göstərmişdir.

Məhz bütün bunun nəticəsidir ki, bir vaxtlar Laçın dağlarında at oynadan Soltan bəy erməni quldurlarının hücumlarının qarşısını qəhrəmanlıqla almış və Zabuxçayda Andranikin qoşununu darmadağın etmişdir.

İsmayıl Mirzəyev, Ocaqqulu Musayev, Abdulla Hüseynov kimi görkəmli inqilabçılar məhz Laçın rayonunda yetişmişlər.

Böyük Vətən Müharibəsində Polşa torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdəki şücaətinə görə laçınlı Əvəz Verdiyev Sovet İttifaqı Qəhrəmanı kimi yüksək fəxri ada layiq görülmüşdür.

O vaxtlar yerli camaatda elmə, maarifə, həvəs oyatmaq üçün 70-ci illərdə "Qabaqcıl maarif xadimi" fəxri adına layiq görülmüş, dünyalarını dəyişmiş Ələsgər Məmmədov, İdris Xəlilov, filologiya elmləri doktoru Xasay Cabbarov, fəlsəfə elmləri namizədi Salman Salahov, hazırda professor Şahbaz Muradov, tarix elmləri doktoru, professor Oktay Əhmədov, coğrafiya elmləri namizədi Malik Mirzəyev, riyaziyyat elmləri namizədi Sovet Möhbalıyev, tibb elmləri namizədi Əvəz Zeynalov, aviasiya texnika elmləri namizədi polkovnik Şamil Məmmədov, riyaziyyat elmləri namizədi Mustafa Qarayev, "Şərəf nişanı" ordenli filoloq Tofiq Nəcəfov, Baxışzadə Həsənli, Müseyib Axundov, Qurban İbrahimov, Musa Quluyev və onlarca başqa elm fədailəri gecə-gündüz əhalinin savadlanması üçün əllərindən gələni etmişlər.

Heyvandarlıqda qazanılan nailiyyətlərə görə Laçın rayonunu nəinki respublikada, hətta o vaxtlar bütün keçmiş SSRİ miqyasında da tanıdan adamlar az olmamışdır.

Adi kəndli, hes bir savadı olmayan keçmiş Leninkənd sovxozunun baş çobanı Həsən Cümşüdov hələ 1936-cı ildə "Lenin" ordeni ilə, bir neçə il sonra isə onun oğlu Əkbər Cümşüdov Moskvada keçirilən Xalq Təsərrüfatı nəaliyyətləri sərgisində "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

70-ci illərdə Kirov adına sovxozun sağıcısı, Qəhrəman ana Şərqiyyə Vəliyeva Sosialist Əməyi Qəhrəmanı, 1980-ci illərdə isə Lenin adına sovxozun baş çobanı Cabbar Cabbarov keçmiş "SSRİ Dövlət mükafatı laureatı" adına layiq görülmüşdür.

Laçın şəhəri ilə həmyaşıd olan, ömrünün 55 ilini Laçın rayonunun ictimai-siyasi, sosial-iqtisadi həyatının inkişafına sərf etmiş, "Şərəf nişanı", "Xalqlar dostluğu", "Oktyabr inqilabı", 3 ədəd Qımızı əmək bayrağı və "Azərbaycan bayrağı" ordenləri ilə təltif olunmuş Muradxan Cabbarov bu gün də bütün çətinliklərə sinə gərərək köçkünlük dövründə öz qaynar fəaliyyətini uğurla davam etdirir.

Qarabağ torpaqları uğrunda gedən döyüşlərdə fədakarlıq göstərmiş və ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı kimi fəxri ada layiq görülmüş həmyerlilərimiz mərhum Kamil Nəsibov, İsrafil Şahverdiyev, Oktay Güləliyev, Fazil Mehdiyev, Qorxmaz Eyvazov və onlarca "Azərbaycan bayrağı" və digər ordenlərə layiq görülmüş mərd, mübariz insanlar məhz Laçın rayonunun yetirmələri olmuşdur.



# ABŞ KÜRDLƏRİ TÜRKİYƏDƏN QORUYUR?

İraqın şimalındakı Regional rəhbərliyin lideri Məsud Bərzani ötən həftə İraqla ABŞ arasında imzalnan hərbi müqaviləyə mənfi reaksiya verib. Narahatlığının səbəbi də ABŞ-ın İraqa təyyarə sat-maq fikrində olması olub.

Bağdad rəhbərliyi isə buna cavab olaraq, bildirib ki, biz F-16 təyyarələrini Kürdləri Türkiyədən qoru-maq və ölkənin başqa xarici qüvvələrdən müdafiə olunması üçün alırıq. **pia.az**



# Abdullah Gül: "Tarık Haşiminin Türkiyədə olması rəsmi Ankaranın İraqın daxili işlərinə müdaxiləsi kimi qəbul edilməməlidir"

«Tarık Haşimi hələ də İraqın vitse-prezidentidir.

Onun Türkiyədə olması rəsmi Ankaranın İraqın daxili işlərinə müdaxiləsi kimi qəbul edilməmə-lidir» Belə bəyanatla Türkiyə prezi-denti Abdullah Gül çıxış edib.

O, bildirib ki, Tarık Haşimi lazım olduğu müddət ərzində Türkiyədə qala bilər və buna heç kim əngəl törədə bilməz. Haşiminin İnterpolun axtarış siyahısına salın-masına da toxunan Türkiyə lideri qeyd edib ki, bu məsələni ökənin məsul qrumları yoluna qoyacaq. Yəni İraqın vitse-prezidenti Türkiyədə həbs olunmayacaq.

# İsraildən Türkiyəyə bütün çarter reysləri dayandı

İsraildən Türkiyəyə bütün çarter reysləri ləğv olunub.

"Haaretz" qəzetinin məlumatı-na görə, buna səbəb çarter reyslərinə bilet alan olmamasıdır. "Onur Air" və "Freebird Airlines" çartet reyslərinin təmsilçiləri isə qəzetə açıqlamalarında bildiriblər ki, Tə-Əviv-Antalya marşrutu ilə



bütün çarter uçuşları dayandırıblar: "Bu, siyasi qərar deyil. Sadəcə, biletlərimizi almır-lar. İnanırıq ki, gələn ay Roş xa-Şanda istirahət mövsümü başlayanda çarter uçuşlarını qis-mən bərpa edə biləcəyik. Bu çarter uçuşları daha çox keçmiş SSRİ ölkələrindən olan, İsrail və Antalya kurortlarında istirahət etməyə üstünlük verən turistlər üçün problem yaradacaq". "Turkish Airlines" aviaşirkəti isə Təl-Əviv-İstanbul marşrutu ilə müntəzəm reyslər davam etdirir.

# Türkiyə ordusu İraqla sərhəddə əməliyyat keçirib

Türkiyənin Hərbi Hava Qüvvələri bu gecə İraqın şimal sərhədində yerləşən Qoman dağlarında terrorçu Kürd Fəhlə Partiyasının (PKK) yaraqlılarına qarşı əməliyyat aparıblar. Trend-in məlumatına görə, bu barədə "Sabah" qəzeti xəbər verir.

Türkiyə kəşfiyyatı PKK yaraqlılarından ibarət qrupun Hakkari əyalətindən sərhədi keçmək niyyəti haqqında məlumat əldə edib. Bunun qarşısını almaq üçün yaraqlıların Qoman dağındakı bazası aviasiya və artilletiya zərbələrinə məruz qalıb.

Əməliyyatın nəticələri haqqında məlumat hələ daxil olmayıb.

# "Suriya vətəndaş müharibəsi astanasındadır"

## Rufiz Hafizoğlu: "Liviyadan fərqli olaraq Suriyaya beynəlxalq güclərin müdaxiləsi qeyri-mümkündür"

TREND İnformasiya Agentliyində Yaxın Şərq və Ərəb ölkələri redaksiyasının müdiri, siyasi analitik Rufiz Hafizoğlunun "Təzadlar"a müsahibəsi

***- Rufiz bəy, Yaxın Şərqdə baş verən hadisələri izləyən şəxs kimi deyə bilərsinizmi, bu gün Suriyada nə baş verir?***

- Bu gün Suriyada baş verən hadisələr Tunisdən başlayan Ərəb baharının bir hissəsi olsa da, əslində bu, Suriya tarixində yeni bir qiyam deyil. Tarixə nəzər salsaq, oxşar qiyamların Hafiz Əsəd hakimiyyəti illərində də baş verdiyinin şahidi olmuş olarıq. Təbii ki, hazırkı vəziyyət bir qədər fərqlidir. Əgər bir vaxtlar Hafiz Əsəd ölkədəki qiyamları yatırmaq üçün islam amilini ortaya atdısa, hal-hazırda Bəşər Əsəd məhz İslami müqavimət amilindən (İsrailə qarşı İran, Suriya və Hizbullahın simasında Livan bloku) istifadə edərək hakimiyyətdə qalmağa çalışır (Ən azından Bəşər Əsəd hakimiyyəti özünü İslam müqav-imətinin ayrılmaz hissəsi kimi təqdim edir).

Əslində isə hadisələri diqqətlə izlədikdə, bu vaxta qədər Suriya hakimiyyətinin İsrailə qarşı ciddi bir müqavimət göstərmədiyinin şahidi olarıq. Ən azından ona görə ki, bu ölkə bu vaxta qədər 1967 ci ildə İsrail tərəfindən işğal edilən Colan yük-səkliklərinin geri qaytarılması üçün addım atmayıb.

Əslində isə Suriya bu gün bəzi dövlətlərin və siyasi dairələrin təqdim etdiyi kimi, "İslam müqavimətinin" ayrılmaz hissəsi yox, İran və Livan (Hizbullah) arasında dəhliz rol-unu oynamaqdadır. Təbii ki, bu dəhlizdən İran vasitəsilə təqdim edilən köməkdən fələstinli qru-pların, xüsusən də İslami Cihad qruplaşmasının faydalandığını inkar etmək olmaz.

Suriya hakimiyyəti ölkədə baş verən toqquşmalara başqa don geyindirməyə çalışsa da, ölkədə Əl-Qaidə terror təşkilatının və ya digər islamçı radikal qrupların nizami orduya qarşı mübarizə apardığını söyləsə də, reallıq bunu əks etdirmir.

Bu gün Suriya küçələrində konkret olaraq üç qrup mübarizə aparır: dövlət ordusu, hakimiyyətə sadiq əksəriyyəti ələvilərdən ibarət olan mülki gey-imli dəstələr və nizami ordudan ayrılan və hakimiyyətin fərari adlandırdığı "Azad Suriya Ordusu".

Təbii ki, haqlı olaraq sual yarana bilər ki, "Azad Suriya ordusu" kim tərəfindən silahlan-dırılır? Son dəfə Suriya müxalifəti ilə görüşüm zamanı müxalifət qonşu dövlətlərin silah dəstəyi verdiyini, lakin bunun cüzi olduğunu etiraf edərək, Azad Suriya ordusunun silahı dövlət ordusundan pulla aldığını bildirdi.

Bu gün Suriyada baş verən hadisələrə müxtəlif prizmadan yanaşmaq olar, lakin hesab edirəm ki, Suriya vətəndaş müharibəsi astanasındadır.

***- Sizcə, Bəşər Əsəd hakimiyyətini qoruyub saxlaya biləcəkmi?***

- Hadisələrin bu templə gedişatı (dinc əhalinin qətl edilməsi) onu söyləməyə əsas verir ki, Bəşər Əsəd hakimiyyət-də qala bilməyəcək. Bəşər Əsədin islahat etmək şansı olsa da, hesab edirəm ki, o, bu fürsəti əldən verdi. ölkədə baş verən toqquşmalar nəticəsində on mindən çox din sahibi həlak olub, ümumilikdə yüz əlli mindən çox qaçqın var, bütün bunlardan sonra hakimiyyətdə qalmağın mümkün olacağını hesab etmirəm.

***- Maraqlı olan odur ki, Misirdə, Liviyada hakimiyyət dəyişik-liyi uğurla başa çatdı. Amma Suriyada dirəniş davam edir. Bunun səbəbini nə ilə bağlayırsınız?***



- Bir şeyi xüsusi olaraq vurğulamaq istərdim ki, Tunis qis-mən istisna olmaqla, nə Liviya, nə də Misir inqilabı öz hədəfinə tam çatıb. Regionun super güc dövləti olan Misirdə bir çox strukturlarda hələ də H.Mübarək zamanından qalan kadrlardır. Dolayısı ilə, ərəb ölkələrindəki demokratikləşmə prosesi uzun və ağrılı bir proses-dir. Ərəb ölkələri demokratik-ləşsə belə, bu bizim düşündüyümüz və ya qərbdəki demokratik idarə sistemi olmaya-caq. Bu ölkələri Suriyadan fərqləndirən əsas xüsusiyyətlərdən biri də geosiyasi vəziyyət olmaqla yanaşı, etnik və dini tərkibidir. Tunis, Liviya və Misirdə isə əsas oxşar məqamlardan biri də əsasən etnik və dini monoton olmalarıdır. Təbii ki, Misirdə Qipti (xristian misirlilər) amili var.

Suriyada isə hər şey tam fərqlidir. Belə ki, Suriyada müsəl-manlar və xaçpərəstlər olmaqla yanaşı, sünni, şiə, ələvi, druz və təbii ki, kürd amili də mövcuddur. Digər bir tərəfdən, bu ölkədə, sadəcə, İranın maraqlarının deyil, eyni zamanda fars körfəzi dövlətlərinin və Türkiyənin maraqlarının olmasıdır.

Suriya hər nə qədər ərəb dövləti olsa da, siyasi strukturu ilə İrana daha yaxındır, hətta Suriya regionda olan "şiə ayparasının" bir hissəsidir.

Təbii ki, ərəb dövlətləri cidd-cəhdlə Suriyanı nəyin bahasına olursa-olsun İranın təsir dairəsindən çıxarmağa çalışırlar. Bu vasitə ilə olsa belə, hesab edirəm ki, ərəb dövlətləri buna razılıq verəcəklər.

Suriyada Bəşər Əsəd reji-minin hələ də hakimiyyətdə qal-masının səbəbləri bununla bitmir. Etiraf etmək lazımdır ki, hal-hazırda Suriya müxalifətində ölkənin gələcək üsul-idarə siste-mi barəsində belə ciddi fikir ayrılığı mövcuddur. Təbii ki, bun-larla yanaşı, başqa səbəblər də var. İran, Rusiya və çin faktoru da təsiredici məqamlardan biridir.

Bildiyiniz kimi, Suriya və İran arasında təhlükəsizlik haqqında razılaşma mövcuddur və bu razılaşmaya əsasən Suriya ərazisinə hər hansı hərbi müdax-ilə İrana hərbi müdaxilə kimi qiymətləndirilir. Bu razılaşmanın olması qonşu dövlətləri daha ehtiyatlı davranmağa məcbur edir.

***- Bildiyiniz kimi, Suriyada baş verən hadisələri ən çox sərt təpki göstərən ölkələrdən biri də rəsmi Ankaradır. Türkiyənin bu davranışı Suriyada necə qarşılanır?***

- Əslində Suriyada baş verən hadisələr dünyanın heç bir yerində birmənalı olaraq qarşılan-mır. Hər nə qədər maraqlı olsa da, İslam dünyası belə, bu məsələdə yekdil fikrə sahib deyil. Ankaranın Suriya məsələsində tutduğu mövqe, sadəcə, Suriya rəsmi dairələrində deyil, eyni zamanda Türkiyə daxilində bəzi siyasi qüvvələr tərəfindən xoş qarşılanmır.

Təbii ki, qonşu dövlət olaraq Türkiyə Suriyanda olan qaçqın-ların qəbul edilməsi, onlara humanitar yardımın göstərilməsi məsələsində hər cür köməklik göstərib. Suriyada baş verən hadisələrdən əziyyət çəkən xalq Türkiyənin bu təpkisini alqışlayır. Lakin müxalifətin Ankaradan istədiyi əslində bu deyil, Suriya müxalifəti Ankaradan silahlı dəstək istəyir. Bu isə o qədər da asan məsələ deyil. ümumiyyətlə, Suriyada baş verən hadisələrə, sadəcə, Türkiyə prizmasından yanaşmaq doğru olmaz. Əslində regionda hazırda Türkiyə və İran arasında ciddi rəqabət gedir. İlk baxışdan Ankaranın yetirdiyi "qonşularla sıfır problem siyasəti" ərəb dövlətlərində uğurlu hesab edilsə də, məsələyə diqqətlə baxdıqda bunun heç də tam olaraq belə olmadığını görmək olar. Hesab edirəm ki, Ankara başda Livan olmaqla, İraq və Suriya siyasətində İrandan geridə qalıb.

***- Əsəd daha çox qan tök-məyə davam etsə, beynəlxalq qüvvələrin bu ölkəyə müdax-iləsi mümkündürmü?***

- Liviyadan fərqli olaraq Suriyaya beynəlxalq güclərin müdaxiləsi qeyri-mümkündür və BMT TŞ əsla belə bir qərar qəbul etməyəcək. Suriya böhranının həlli üçün ən uğurlu vasitə isə ölkə müxalifətini maksimum silahlandırmaq olacaq. Hesab etmirəm ki, bu, problemin həllində maraqlı olan tərəflərə bir o qədər də asan başa gəlsin. çünki Suriya İran üçün həyat əhəmiyyətli böl-gədir. İran Suriyanı itirmək təh-lükəsini hiss etsə, regionda stabil-liyin pozulması üçün bir çox vasitələrdən istifadə edə bilər. İstisna deyil ki, İranın belə bir addımının qarşısını Türkiyə və ərəb ölkələri asanlıqla ala bilsin-lər. Təbii ki, Suriya böhranının daha təhlükəli tərəfi var, o da problemin Yaxın Şərqdə məzhəblərarası toqquşmaya çevrilə bilməsidir.

***Elnur Eltürk***

# Qamişlo'da onbinler yürüdü




Suriye'nin ikinci büyük kenti Halep'te Kürt mahallesine yapılan saldırı dün Qamişlo'da 25 bin kişinin katıldığı bir yürüyüşle protesto edildi.

Batı Kürdistan'ın Qamişlo kentinde "Halep'teki Kürtlerle dayanışma Cuması" adı altında dün 25 bin kişi toplandı. Kürtler, Suriye rejimi ve işbirlikçilerini protesto ederek, özerklik taleplerini yeniden dile getirdi. Gösteri aralarında Tev-Dem ve PYD'nin olduğu bir çok organizasyonun çağrısıyla gerçekleşti.

9 Mayıs akşamı çok sayıda Arap, Halep'te Kürtlerin yoğunluklu olarak yaşadığı Şeyh Mahsut Şark mahallesine saldırdı. Saldırı sırasında Ahmet Qoçer (46), Ahmet Osman ve Battal Avdo (22) adlı Kürtler ve Emine Diyab adlı bir Arap kadın hayatını kaybetti, 30 kadar kişi de yaralandı. Kürtlerin de karşılık vermesi üzerine saldırganlardan 8'i öldü. Arapların saldırısıyla başlayan çatışmalarda toplam 12 kişi hayatını kaybederken 60 kişi de yaralanmıştı. Kürtler, saldırıdan rejim yanlısı Begara aşiretini sorumlu tutuyor.

***ANF/QAMİŞLO***

# Demokratik Toplum Konqresi (DTK),

***Kürd probleminin həlli məsələsinə dair Demokratik Toplum konfransının ikinci yığıncağı Bağlar Bələdiyyəsi Konfrans Salonunda başladı***




Konfrans "DTK" –la bərabər, Aysel Tuğluk və Əhməd Türkün yanında "ESP" ümumi başçısı Figen Yüksekdağ, "EMEP" ümumi başçısı Selma Gürkan, "Pir Sultan Abdal" Mədəniyyət Dərnəyi ümumi başçısı Kamal Bülbül, "BDP" millət vəkilləri Ayla Akat Ata, İdris Baluken, Hüsamettin Zenderlioğlu, Diyarbakır Böyükşəhər Bələdiyyə Başçısı Osman Baydemir, "Sinn Fein" başçı köməkçisi Raymond Mccartney, "Queensə" universitetindən Eprahim Nımmı, "Barcelona Avtonom" Universitetindən Francisco Letamendia Belzunce ilə aydın, yazar, jurnalist, alim və siyasətçilər qatılacaq.

Çalıştayda "Siyasi", "hüquqi", "öz müdafiə etmə", "ictimai", "iqtisadi", "mədəni", "ekoloji" və "diplomatiya" olmaq üzrə 8 sahədə təşkilatlanmağı əsas alan sahə "Demokratik Muxtariyyat" modelimüzakirə ediləcək.

***Türk, "Dayan deyəcək tək güc buradır"!***

XDK Ümumi Qurulunda danışan DTK yoldaş Başçısı Türk, AKPin Türkiyəyə faşist, irqçi bir diktatorluğu suveren etməyə çalışdığını ifadə edərək, "Bu təhlükəli gedişə, faşist, irqçi anlayışa 'dayan' deyəcək tək güc buradır" dedi.

XDK (XALQLARIN DEMOKRATİK KONGRESI) 1. Ümumi Qurulunda söz alan DTK yoldaş Başçısı Əhməd Türk, salonu Kürdcə salamladıqdan sonra danışmasına Türkcə davam etdi. Türkiyədəki zərbələr müddətinə diqqət çəkən Türk, "Amma azadlıq ehtirası o qədər güclü ki, əsla və əsla, xalqın azadlıq ehtirası sindirilməmişdir. Azadlıq, bir toxuma bənzər. Biçildiyində yenidən çıxar. Azadlıq toxumlarını toplu məzarlara belə basdırsalar buradan azadlıq yüksələr. Buna ürəkdən inanıram." dedi.

Orta şərqdəki dəyişmə küləklərinin Türkiyədə də dəyişmə yaratdığını söyləyən Türk, "Dəyişmədə öndərlik çox əhəmiyyətlidir. XDK in varlığı, barış və azadlıq içində çox əhəmiyyətlidir. Bizlər illərdir azadlıq mübarizəsi verən Kürd xalqı olaraq yanınızdayıq" deyə danışdı.

"Türkiyə illərdən vesayet rejimi altında idi. Bunun münaqişə edildiyi bir dövrdəyik" deyən Türk, "Yaxşı vesayet rejimi yerinə yeni bir şeymi gəlir? Demokratiyamı qazanır? Tam tərsinə çox təhlükəli bir müddətin içinə girdik. Bu hökumətin tutumu, faşist, irqçi bir diktatorluğu, Türkiyədə suveren etməyə çalışdığını göstərir. Minlərlə adam həbsxanalardadır. Bu təhlükəli gedişə, faşist, irqçi anlayışa dayan deyəcək tək güc buradadır" deyə danışdı. Kürd xalqı ilə inqilabçıların ortaq mübarizə etməsi lazım olduğunu ifadə edən Türk, "Yan-yana olmadan bacara bilmərik" dedi.

